RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 265 (8288) CÜMƏ, 29 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin islahatlar konsepsiyasına YAP-dan dəstək

## Parlament xalqdan yeni etimad mandatı alacaq

Azərbaycan vətəndaşları yaxın aylarda müstəqillik dövrünün 6-cı parlamentini seçəcək, 125 yeni millət vəkilini müəyyənləşdirəcək. Milli Məclisdə mütləq əksəriyyətə malik olan Yeni Azərbaycan Partiyasının deputat korpusunun təşəbbüsü ilə parlamentin buraxılması və növbədənkənar gerçəkləşəcək seçki ölkədə aparılan genişmiqyaslı islahatların yaratdığı hüquqi, siyasi tələblərlə bağlıdır.

### Növbədənkənar seçkiləri zəruri edən səbəblər

Qanunvericilik tariximizin ilk növbədənkənar parlament seçkisi ilə bağlı təşəbbüsünü də YAP rəhbərliyi məhz bu amillərlə izah etdi. Bir vacib məqamı da qeyd edək ki, həm də hakim partiyanın sədri olan İlham Əliyevin müəllifliyi ilə son illərdə aparılan islahatlar miqyasına görə olduqca genişdir, həm də sistemlidir. Hər sahə üzrə konkret plan, layihə və vəzifə-məsuliyyət bölgüsü düzgün müəyyənləşdirilib. Yeni dövrün çağırışlarına adekvat olan islahatların uğurlu gedişini təmin etmək məqsədilə aparılan hüquqi-qanunvericilik təkmilləşməsi davamlı hal alıb. Xüsusən də Konstitusiyaya edilən əlavə və dəyişikliklər islahatların hüquqi tənzimlənməsini və yeniləşən sistemə uyğunlaşdırılmasını həyata keçirib.

Mövcud maliyyə-iqtisadi duruma adekvat olan və qlobal çağırışlara cavab verən yeni islahatlar kursu artıq ilkin uğurlu nəticələrini verib, ölkə iqtisadiyyatının bütün sahələrində, xüsusən də qeyri-neft sektorunda əsaslı canlanma yaranıb və bu proseslər beynəlxalq ekspertlər tərəfindən yüksək dəyərləndirilir.

Şübhəsiz, islahatların cəmiyyətin bütün sahələrini əhatə etməsi üçün onun hakimiyyətin bütün qollarına da sirayət etməsi vacibdir. Dövlət hakimiyyətinin üç sütunundan biri olan icraedici hakimiyyətdə son illərdə aparılan müsbət dəyişikliklər bu sistemdə köklü yeniliklərə, müasir inkişaf tendensiyalarına təkan oldu, dövlətin mövcudluq və müstəqilliyin davamlılıq şərtlərini təmin edən inzibati amilləri gücləndirdi. Dərin və sürətli islahatlar dövründən sonra sistem islahatları mərhələsi adı alan bu proses vasitəsilə Prezident yeni hədəflərə daha çevik, modern və səmərəli idarəçilik modeli ilə addımlayır.

Bu kontekstdə Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Vətənə, dövlətə və xalqa layiqli xidmət missiyası ilə yeni mərhələyə qədəm qoyan Mehriban Əliyeva ötən dövrdə ona olan ümummilli inamı və Prezidentin etimadını yüksək peşəkarlıqla doğruldaraq bu təyinatın doğruluğunu təsdiqlədi. İki ildən artıqdır ki, ölkədə sosial sahədəki islahatlar birmənalı olaraq məhz Mehriban Əliyevanın fəal icraçılığı, novator təşəbbüskarlığı ilə gerçəkləşir. Onun səlahiyyət kurasiyası şübhəsiz ki, yalnız bu sahə ilə məhdudlaşmır. Dövlət quruculuğu prosesinin bütün istiqamətlərində mükəmməl nümunələr yaradan Birinci vitse-prezident ölkə rəhbərinin fəaliyyətinə əvəzsiz töhfələr verir, İlham Əliyevin islahatlar kursunun xalq tərəfindən böyük coşqu ilə dəstəklənməsini təmin edir.

Həmçinin Prezidentin islahatlar konsepsiyasının icrasını həyata keçirən hökumətin iki il öncə yenilənməsi və bir ay öncə tərkibinin daha da təkmilləşdirilməsi, eyni zamanda ali rəhbərlikdən yerli icra strukturlarının başçılarınadək aparılan köklü dəyişikliklər bu xüsusda mühüm səciyyə daşıyır. Təşəbbüskarlıq, çeviklik, səmərəlilik, şəffaflıq, məsuliyyət kimi dəyərlər Prezidentin məmurlardan hər zaman əsas tələbi idi. İndi isə görünən odur ki, bunlar həm də yeni idarəçilik aparatının formalaşmasında İlham Əliyevin əsas etimad meyarı olub.

Ardı 3-cü səh.

# Azərbaycan-Slovakiya münasibətlərində yeni mərhələ başlayır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Slovakiya Respublikasının Xarici İşlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadıq. Əminəm ki, səfəriniz çox səmərəli və uğurlu olacaq. Əlbəttə ki, biz ikitərəfli əməkdaşlığımızla bağlı məsələləri əhatə edəcəyik və həmçinin ATƏT-in sədri kimi bizim ənənəvi gündəliyimiz var. Əminəm ki, səfər əlaqələrimizin inkişafına öz töhfəsini verəcək. Düşünürəm ki, hazırda əlaqələrimiz yeni, çox fəal mərhələyə qədəm qoyur. Nisbətən bu yaxınlarda biz burada Baş Nazirlə görüşdük və tərəfdaşlığımızı inkişaf etdirməklə bağlı çox yaxşı söhbətimiz oldu, fikir mübadiləsi apardıq.

Bizim uğurla əməkdaşlıq edə biləcəyimiz çoxsaylı məsələlər var. Sözsüz ki, biz yaxşı siyasi əlaqələrə malikik. Lakin biz hələ də çox aşağı olan ticarət dövriyyəmizin artması üzərində diqqəti cəmləşdirməli və bunu etmək üçün yollar axtarmalıyıq. Zənnimcə, yollardan biri biznes dairələrimiz arasında daha fəal qarşılıqlı əlaqə ola bilər. Bəlkə də müəyyən mərhələdə biz potensialımızı təqdim etmək üçün birgə biznes forum, bəzi başqa tədbirlər təşkil edə bilərik. Çünki ticarət dövriyyəmizin aşağı olmasının səbəblərindən biri məlumat çatışmazlığıdır. Bizim daha çox ünsiyyətimiz, potensialla bağlı daha çox məlumatımız olsa, əminəm ki, bunun müsbət təsiri olacaq. Əlbəttə, düşünürəm ki, ölkələri birləşdirən layihələrlə bağlı məsələlər maraq kəsb edə bilər. Bildiyiniz kimi, hazırda Azərbaycan nəqliyyat sahəsində körpülərin yaradılması ilə fəal məşğul olur. Biz artıq öz dəmir yolu sistemimizin Gürcüstan və Türkiyə vasitəsilə Avropa və Xəzər hövzəsi ətrafında olan tərəfdaşlarımızla birləşdirilməsi sahəsində çox yaxşı uğur qazanmışıq. Biz artıq Çindən və Mərkəzi Asiya ölkələrindən yükləri qəbul etməyə, tranzit daşımalara başlamışıq və onun həcmi artır. Ona görə də düşünürəm ki, biz yük daşımalarının artmasına birgə necə töhfə verəcəyimizlə bağlı nəqliyyat rəsmiləri arasında məsləhətləşmələrə başlaya bilərik.

Sözsüz ki, enerji təhlükəsizliyi avropalı tərəfdaşlarla əməkdaşlığın ənənəvi mövzusudur. Biz bütün əsas transmilli enerji layihələrimizi uğurla həyata keçirmişik və çox tezliklə - bir neçə günə bizim təbii qaz fiziki olaraq artıq Avropa İttifaqının sərhədində olacaq.

Ardı 2-ci səh.

# Hədəf daha qüdrətli, daha rifahlı Azərbaycandır!

## Prezident İlham Əliyevin Sumqayıtın və BDU-nun yubileylərindəki çıxışları haqqında bəzi qeydlər

"Azərbaycan Prezidentinin son iki çıxışının əsas yekunu budur: uğurlarımız faktdır, lakin dayanmaq olmaz, biz daha qüdrətli, daha rifahlı bir Azərbaycan qurmalıyıq. Bu hədəfə doğru irəliləyərkən keçmiş illərin nə uğurlu səhifələrini, nə də ki, acı xatirələrini; nə ölkəni idarə edənlərin uğurlarını, nə də səriştəsizliklərini; nə siyasi qətiyyətin nəticələrini, nə də səhlənkarlıqların fəsadlarını unutmamalıyıq.

Qarşıdan gələn müddətdə milli tariximizin bütün dərslərini və yaşana biləcək fəsadları göz önünə almalı, Ümumazərbaycan məsələlərində dövlətçiliyə xidmət edənləri də, düşmənlərimizlə bir sırada yer alanları da, bələlərindən qəhrəman düzəldənləri də yaxşı tanımalıyıq. Biz - Azərbaycanın inkişafına məsul olan iqtidar komandası dövlətçiliyimizin və milli maraqlarımızın ətrafında daha sıx birləşərək, bu yolda heç bir təxribatçı fəaliyyətə, komanda oyununa xələl gətirmə istiqamətindəki əyintilərə imkan verməyəcəyik".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" səhifəsində paylaşdığı statusda yer alıb.

Ardı 4-cü səh.

# "Tibbi sığorta haqqında" qanuna dəyişiklik edilməsi təklif olunub

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) bu barədə yaydığı məlumatda bildirilir ki, Milli Məclisə göndərilən təkliflərə əsasən, 2020-ci ilin yanvar ayının 1-dən dövlət tərəfindən bütün əhali üzrə təqvim ili üçün adambaşına 90 manat icbari tibbi sığorta haqqının ayrılması nəzərdə tutulur.

Həmçinin dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunub. Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən isə aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 1, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqının ödənilməsi müəyyənləşdirilib.

Məlumatda sonra bildirilir: "Məlumdur ki, dünyada icbari tibbi sığortanın təməl prinsipi həmrəylikdir. Bu prinsipə əsasən, qanunvericilikdə nəzərdə tutulan əhali kateqoriyalarından toplanan sığorta haqları tibbi xidmətlərə ehtiyacı olan şəxslər üçün xərclənilir.

Qeyd edək ki, 2020-ci ildə icbari tibbi sığortanın ölkədə mərhələli şəkildə tətbiq olunması təklif olunub. Gələn il yanvarın 1-dən icbari tibbi sığorta haqlarının toplanılması nəzərdə tutulur. Məsələ ondadır ki, bəzi əmək müqaviləsi ilə işləyən şəxslərin çalışdıqları inzibati ərazi ilə qeydiyyatda olduqları inzibati ərazi eyni olmadığına görə icbari tibbi sığorta haqlarının mərhələli şəkildə toplanılmasını həyata keçirmək praktiki olaraq mümkün deyil.

Ardı 2-ci səh.

# Erməni təxribatının «Sumqayıt ssenarisi»

Tarixin müxtəlif dönəmlərində ermənilər Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərə imza atmışlar. 1988-ci ilin fevralında Sumqayıtda baş verən hadisələr də ermənilərin və onların havadarlarının Azərbaycan xalqı ilə bağlı dünyada mənfi imic yaratmaq məqsədi güdən qanlı cinayətlərindən biri idi. Bu hadisə nəticəsində Sumqayıtda müxtəlif millətlərdən olan 32 adam, o cümlədən 26 erməni həlak olmuş, 400-dən çox insan bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın sındırılmış və qismən yandırılmış, şəhərə ovaxtkı qiymətlərlə 10 milyon ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdu.

## Azərbaycana qarşı total informasiya müharibəsi başlamışdı

Belə misalları çox sadalamaq olar. Möhkəm silahlanmış ermənilər ideoloji silahdan da məharətlə istifadə etməyə çalışırdılar. Erməni və ermənipərəst qüvvələr dünyanın ayrı-ayrı mətbuat səhifələrində guya Böyük Ermənistanın mövcud olduğunu iddia edir, Osmanlı imperiyası tərəfindən dağıldığını ön plana çəkirdilər. Fransız sovetşünası Lemerse-Kelkeje "Azərbaycana xaricdən təsir" məqaləsində Azərbaycan tarixini təhrif edir, qonşu dövlətlərə (ermənilər nəzərdə tutulur - *müəl.*) qarşı xəyanətkar olduğunu sübut etməyə çalışırdı.

Ardı 6-cı səh.

# Paşinyan ölkəsini səfalətə sürükləyir

## Kasıbların zibil qutularına üz tutması adi hala çevrilib

Ermənistanda ən böyük problemlərdən biri ağır sosial-iqtisadi durum fonunda ölkədə miqrasiya tempinin yeni vüsət alması, daha çox sayda insanın xaricə üz tutmasıdır. Ermənistanın gələcəyi ilə bağlı nikbin olmayanlar indiki durumda müxtəlif xarici ölkələrdə məskunlaşmağı ən yaxşı çıxış yolu sayırlar. Məhz bu səbəbdən miqrasiya ilə bağlı yenidən həyəcan təbili çalınır.

Erməni mediası yazır ki, ölkədə Paşinyan komandasının fəaliyyəti nəticəsində Ermənistanın boşalması davam edəcək. Bunun əsas səbəbi yeni iqtidarın yarıtmaz siyasəti, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistanın inkişafdan geri qalmasıdır. Ölkədə əhalinin sayının ildən-ilə azalması elə həddə çatıb ki, nə vaxtsa artacağı da şübhə altındadır.

İşğalçı ölkədə getdikcə dərinləşən tənəzzül silahlı qüvvələrin durumuna da təsirsiz ötüşmür. Elə bunun nəticəsidir ki, Ermənistan ordusu getdikcə daha acınacaqlı vəziyyətə düşür. Ordu rəhbərliyində edilən dəyişikliklər də vəziyyəti dəyişə bilməyib, əksinə, daha acınacaqlı hala gətirib.

Araşdırmalar da göstərir ki, Ermənistan ordusunda insidentlərin sayı artıb. Rəsmi məlumata əsasən, təkcə qətl və intihar hallarının sayı ötən illə müqayisədə dəfələrlə çoxalıb. Silahlı qüvvələrdə əvvəllər müşahidə olunan qanun pozuntuları daha geniş miqyas almağa başlayıb. Bu günlərdə Ermənistanın Tavuş vilayətinin Noyemberyan şəhərində yerləşən Dilican təlim mərkəzində 2000-ci il təvəllüdlü sıravi əsgər Vaan Muşeqyan ipdən asılı halda aşkar edilib.

Ardı 6-cı səh.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan-Slovakiya münasibətlərində yeni mərhələ başlayır

*Əvvəli 1-ci səh.*



Bu, bir sıra ölkələr və həmçinin Avropa İttifaqı arasında hərtərəfli əməkdaşlıq sayəsində əldə olunmuş çox nəzərəçarpan nailiyyətdir. Bildiyiniz kimi, Azərbaycan və Avropa İttifaqı ənənəvi olaraq Cənub Qaz Dəhlizi Məşvərət Şurasını keçirir. Biz artıq 5 iclas keçirmişik. Növbəti iclas gələn ilin fevralında keçiriləcək. Əməkdaşlığın bu formatı çox səmərəlidir.

Əlbəttə ki, tərəfdaşlığımızla əlaqədar bir çox başqa məsələlər də var. Viza rejiminin liberallaşdırılması sayəsində indi Slovakiyadan gələnlər Azərbaycana asan giriş əldə edirlər. Eşidəndə ki, siz ölkəmizdə səfirlik açırsınız, çox şad oldum. Bu, çox müsbət göstəricidir. Mən, həmçinin öz komandamıza eyni istiqamətdə hərəkətə başlamaq tapşırığını vermişəm. Beləliklə, bizim də təqdimatımız olacaq və bu, əlbəttə ki, əməkdaşlıq üçün daha çox imkanların tapılmasına kömək edəcək.

ATƏT məsələlərinə gəldikdə, sözsüz ki, münaqişə regionun böyük problemidir, region üçün böyük təhlükədir. Əfsuslar ki, hesab edirəm, bu il əldən verilmiş fürsətlər ili olmuşdur. Bunun başvermə səbəbi isə Ermənistanın beynəlxalq hüququn normalarına əməl etmək, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və ATƏT tərəfindən qəbul olunmuş qətnamələri icra etmək istəməməsi ilə bağlıdır. Bu il ölkə başçıları səviyyəsində, həmçinin Xarici İşlər nazirləri səviyyəsində danışıqların bir neçə mərhələsi olmuşdur. Növbəti görüş tezliklə sizin ölkənizdə olacaqdır. Ümid edirik ki, növbəti il daha məhsuldar olacaq. Çünki münaqişənin ən tez müddətdə həll olunması Azərbaycanın və əminəm ki, Ermənistanın maraqlarına xidmət edir. Lakin bu məsələdə hər hansı bir irəliləyişə nail olmaq üçün yerlərdə praktiki addımlar atılmalıdır. Birinci addım Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədlərinin, ərazilərinin deokkupasiyasının başlanılmasıdır. Əlbəttə, biz bir çox başqa məsələləri də müzakirə edəcəyik, lakin düşünürəm ki, başlanğıc üçün bu qədər yetər.

* * *

Slovakiyanın Xarici İşlər və Avropa naziri **Miroslav LAYÇAK** dedi:

- Çox sağ olun, cənab Prezident. Bakıya yenidən gəlmək məndə böyük məmnunluq hissi oyadır. Məni və nümayəndə heyətimizi qəbul etmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. Böyük sevinc hissi ilə demək istəyirəm ki, mənim Bakıda keçirəcəyim vaxtın ən önəmli hissəsi burada Slovakiya səfirliyinin açılışı olacaqdır. Bununla biz vədimizi yerinə yetiririk və ikitərəfli münasibətlərimizdə yeni mərhələnin açılışını edirik. Fakt ondan ibarətdir ki, biz ölkənizin böyük potensialına bələdik. Artıq neçə ildir heç bir şübhəmiz yox idi ki, burada təmsilçiliyimiz olmalıdır. Nəhayət, zəruri resursları tapa bildik və bu gündən etibarən biz rəsmi olaraq burada olacağıq. Mən bizim ən təcrübəli səfirlərimizdən biri olan və adı mənim adıma çox oxşayan Layçakı bura göndərmişəm.

* * *

Slovakiyanın Xarici İşlər və Avropa naziri Miroslav Layçak Azərbaycanın regiondakı strateji mövqeyini çox yüksək qiymətləndirdiklərini bildirdi.

Görüşdə Azərbaycan-Slovakiya hökumətlərarası birgə əməkdaşlıq komissiyasının yaradılması, kənd təsərrüfatı, əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## L.İ.Abasova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda tikinti sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Litvin İbiş oğlu Abasova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2019-cu il*

## R.M.Əfəndizadənin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda memarlıq sənətinin inkişafında xidmətlərinə görə Rəna Mahmud qızı Əfəndizadə 2 ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2019-cu il*

## Azərbaycanın Baş Naziri Slovakiyanın Xarici İşlər və Avropa naziri ilə görüşüb



Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov noyabrın 28-də Slovakiya Respublikasının Xarici İşlər və Avropa naziri Miroslav Layçakla görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.

## Slovakiyanın Azərbaycandakı səfirliyinin rəsmi açılış mərasimi olub



Noyabrın 28-də Slovakiyanın Azərbaycandakı səfirliyinin rəsmi açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə uşaq xorunun ifasında Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirilib.

Mərasimdə iştirak edən Slovakiyanın Xarici və Avropa İşləri naziri Miroslav Layçak səfirliyin açılmasının ölkəsi ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyini söyləyib. "Azərbaycanın potensialını bilirdik, buna görə də burada səfirlik açmaq qərarına gəldik. Biz iqtisadi sahədə daha intensiv fəaliyyət göstərməyə hazırıq. İqtisadi qanunvericilik bazasının qurulmasında prosesləri sürətləndirməli - sərmayəçiləri və biznesmenləri sahibkarlıq fəaliyyətlərinə daha da ruhlandırmalıyıq. Biz birbaşa biznes əlaqələrinə dəstək verməyə və yeni biznes platformalarını üzə çıxarmağa hazırıq. Bizim xalqlarımız oxşardırlar, onlar dostluq əlaqələrimizin və insani münasibətlərimizin təməlini qoyanlardı. Buna görə də insanlara daha yaxın olan təhsil, gənclər mübadiləsi, səhiyyə və turizm kimi sahələrdə yeni əməkdaşlıq imkanları üzə çıxarmağa maraqlıyıq" deyə nazir qeyd edib.

Azərbaycanın Xarici İşlər nazirinin müavini Ramiz Həsənov ölkəmizdə Slovakiya səfirliyinin fəaliyyətə başlamasının əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini vurğulayıb. O bildirib ki, Azərbaycan tərəfi səfirliyin səmərəli fəaliyyəti üçün lazımi dəstək göstərməyə hazırdır.

Azərbaycanın Slovakiya ilə əlaqələrə önəm verdiyini vurğulayan nazir müavini qeyd edib ki, iki ölkə arasında münasibətlər inkişaf edir və yüksək səviyyəli səfərlər əlaqələrin inkişafına öz töhfəsini verir. "Azərbaycan Respublikası və Slovakiya Respublikası arasında bir sıra sahələrdə əməkdaşlığa dair sənədlər imzalanıb. Bu sazişlər iki ölkə arasında müxtəlif sahələrdə mövcud olan əlaqələrin etibarlı hüquqi təməlini yaradıb. Bununla yanaşı, ölkələrimiz arasında iqtisadi-ticarət, enerji, turizm və humanitar sahələrdə əməkdaşlığı daha da inkişaf etdirmək üçün əlverişli imkanlar mövcuddur" deyə nazir müavini bildirib ki, bu imkanlardan səmərəli istifadə olunması istiqamətində bundan sonra da birgə səylər göstəriləcək.

Xatırladaq ki, Slovakiyanın Azərbaycanda səfirliyi bu il oktyabrın 1-dən fəaliyyətə başlayıb.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, noyabrın 28-də Şirvan şəhəri, Qusar, Zaqatala, Goranboy, Saatlı rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifahının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunub. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edir. Minimum pensiya 72 faiz artırılıb. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Şamaxı rayonunun Bakı-Şamaxı-Yevlax (115 km)-Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Bakı-Şamaxı-Yevlax (115 km)-Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 11,1 milyon (on bir milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2019-cu il*

## Şamaxı rayonunda xidmət infrastrukturunun texniki təminatının gücləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Şamaxı rayonunda xidmət infrastrukturunun müasir tələblər səviyyəsində yenidən qurulması, ətraf mühitin mühafizəsi, kommunal, sanitariya və digər xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şamaxı rayonunda məişət tullantılarının daşınması və utilizasiyası, yolların təmizlənməsi, ictimai nəqliyyat xidmətinin keyfiyyətinin yaxşılaşdırılması, təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin təkmilləşdirilməsi üçün texnika və avadanlıq alınması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 7,0 (yeddi) milyon manatı Şamaxı Rayon İcra Hakimiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2019-cu il*

## Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edilsin və Azərbaycan Respublikasının qanunlarında maliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətləri, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları, habelə əmlakı Azərbaycan Respublikasının Mərkəzi Bankına verilsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Bankı bir ay müddətində:

2.1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının qanunlarında və digər qanunvericilik aktlarında zəruri dəyişikliklərin edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. müvafiq təhvil-təslim işlərinin həyata keçirilməsi üçün bütün zəruri tədbirləri həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2019-cu il*

## «Tibbi sığorta haqqında» qanuna dəyişiklik edilməsi təklif olunub

*Əvvəli 1-ci səh.*

Belə ki, 2020-ci ilin birinci rübündə icbari tibbi sığorta şimal bölgəsində (məsələn, Quba rayonu) qeydiyyatda olan sakinlərə şamil olunsa da, onların bir hissəsi digər regionlarda, xüsusən də Bakıda yerləşən müəssisələrdə çalışır.

Eyni zamanda qeyd edək ki, icbari tibbi sığorta fondunun büdcəsi artıq proqnozlaşdırılıb, gəlir və xərc istiqamətləri müəyyənləşdirilib. Dövlət büdcəsi tərəfindən adambaşına illik 90 manat olmaqla, ümumilikdə 900 milyon, işçi və işəgötürənlərdən hər biri üzrə 229 milyon, digər mənbələrdən 185 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılır.

Məlumat üçün bildirək ki, icbari tibbi sığortanın tətbiq ediləcəyi və edilməyəcəyi ərazilərdə fəaliyyət göstərən tibb müəssisələri arasındakı əsas fərq onların maliyyələşdirilməsi mexanizmi ilə bağlı olacaq. Belə ki, İTSDA sığortanın tətbiq ediləcəyi tibb müəssisələrini göstərdikləri tibbi xidmətlərin həcminə əsasən maliyyələşdirəcək. İcbari tibbi sığorta tətbiq edilməyən tibb müəssisələrində isə maliyyələşmə müəssisənin saxlanma xərcləri üzrə aparılacaq.

Dövlət büdcəsi tərəfindən ödənilən adambaşına illik 90 manat vəsait də eyni qaydada mərhələlərə bölünməklə sığortahaqqı və ya saxlanma xərcləri qaydasında İTSDA-ya ödəniləcək. Həmin vəsaitlər vətəndaşların xidmətlər zərfi çərçivəsində tibbi xidmət əldə etmələri ilə yanaşı, tibb müəssisələrinin hazır olması üçün lazım olan sərmayə qoyuluşlarına, informasiya texnologiyaları infrastrukturunun gücləndirilməsinə yönəldiləcək.

Beləliklə, İTSDA səhiyyə resurslarını özündə cəmləşdirməklə 2020-ci ildə ölkə üzrə icbari tibbi sığortanın mərhələli şəkildə tətbiqini təmin edəcək. Nəticədə vətəndaşların tibbi xidmətlərə əlçatanlığı artacaq.

İcbari tibbi sığorta tətbiq edilməyən ərazilərdə tibbi xidmətlərdən yararlanmaq məsələsinə gəldikdə, qeyd olunmalıdır ki, əhali qanunvericilikdə nəzərdə tutulmuş qaydada tibbi xidmətlərdən istifadəyə davam edəcək".

***"Azərbaycan"***

## Vətəndaşların qəbulu keçirilib

Noyabrın 28-də Təhsil naziri Ceyhun Bayramov Yevlax şəhərindəki Heydər Əliyev Mərkəzində Ağdaş və Yevlax rayon sakinlərini qəbul edib. Qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin yerdəyişməsi, dərs saatlarının bölgüsü, işə bərpa olunma və digər məsələlərlə bağlı müraciətlər ediblər.

* * *

Noyabrın 28-də Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Şəmkir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Şəmkir, Gədəbəy, Tovuz və Ağstafa rayonlarından olan vətəndaşları qəbul edib. Qəbul zamanı ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib.

Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Noyabrın 28-də "Azərişıq" ASC sədrinin müavini Ramil Yusifov Cəlilabadda vətəndaşları qəbul edib. Qəbulda Cəlilabad və Biləsuvar rayonlarının sakinləri iştirak ediblər.

Qəbulda "Azərişıq"ın fəaliyyət istiqaməti üzrə şikayət və təkliflər dinlənib. R.Yusifov bütün məsələlərin qanunvericiliyə uyğun və operativ şəkildə həll edilməsi üçün ASC-nin əlaqədar struktur qurumlarının rəhbərlərinə və rayon elektrik şəbəkələrinin rəislərinə müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin əsas hissəsi yerindəcə həllini tapıb. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və operativ həlli üçün icraya yönəldilib. "Azərişıq" ASC-nin fəaliyyət istiqamətlərinə aid olmayanların isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün yaradılan şəraitdən razılıq ediblər.

***AZƏRTAC***

# YAP-ın qərargahında partiyanın Siyasi Şurasının iclası ilə əlaqədar mətbuat konfransı keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini-icra katibi, Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov noyabrın 28-də partiyanın Siyasi Şurasının iclasında müzakirə olunan məsələ ilə əlaqədar mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Yeni Azərbaycan Partiyası Siyasi Şurasının noyabrın 28-də keçirilən iclasında Azərbaycan parlamentində islahatların aparılması ilə əlaqədar məsələ müzakirə olunduğunu bildirib. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatlar konsepsiyası, onun nailiyyətləri cəmiyyətdə ciddi şəkildə müzakirə olunur, insanlar bu islahatların faydasını gördüklərini etiraf edir və həmin islahatları dəstəkləyirlər. Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası islahatlar konsepsiyasını dəstəkləyən vətəndaşlarımızın ilk sırasında dayanır və bu islahatların uğurla həyata keçirilməsinə öz töhfələrini verir və bundan sonra da verəcək.




Əli Əhmədov qeyd edib ki, cəmiyyətimizdə həyata keçirilən islahatlar bir çox sahələri əhatə edir. Bu islahatların qarşısında duran başlıca vəzifə Azərbaycanın iqtisadiyyatının inkişaf etdirilməsi, onun şaxələndirilməsinə nail olunması, ölkəmizin iqtisadi gücünün və qüdrətinin artırılması, bunların zəminində sosial inkişafın daha da yüksək templə həyata keçirilməsinin təmin edilməsi, insanların rifahının daha da yaxşılaşdırılmasıdır. 2019-cu ili Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə həyata keçirdiyi islahatların daha dinamik xarakter aldığı il hesab etmək olar. Bu il ərzində bir çox əhəmiyyətli islahatlar həyata keçirilib və bu islahatlar bundan sonra da davam etdiriləcək. Xüsusilə 2019-cu ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə və imzaladığı sərəncamlarla hamının məmnunluğuna səbəb olan əhəmiyyətli sosial paketlər reallaşdırılıb. Struktur və kadr islahatları ayrıca qeyd olunmalıdır. Azərbaycan cəmiyyətində müəyyən dövrlər ərzində geniş müzakirə mövzusu olan bu dəyişikliklər insanların məmnunluğu, razılığı ilə qarşılanıb.

YAP sədrinin müavini bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sistemli, geniş əhatəli xarakter kəsb edir. Bu, ondan xəbər verir ki, islahatlar həyatımızın istisnasız olaraq bütün sahələrini əhatə etməlidir. İslahatların sistemli xarakter almasının və qarşıya qoyulan vəzifələrin uğurla reallaşdırılmasının çox vacib şərtlərindən biri bütün sferalarda islahatlar konsepsiyasının həyata keçirilməsidir. Azərbaycanda bugünədək hakimiyyətin hər iki qolunda islahatlar uğurla həyata keçirilir, istər struktur sahəsində, istərsə də kadr sahəsində. İcra hakimiyyətində, məhkəmə-hüquq sahəsində islahatlar aparılır. İslahatlar strategiyasının tam sistemli xarakter alması, inkişafın ümumi ahənginə uyğun olması üçün bu islahatlar hakimiyyətin bütün qollarını əhatə etməlidir. Beləliklə, Yeni Azərbaycan Partiyasının üzvləri bu qənaətə gəliblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qanunverici hakimiyyət sferasından kənarda qalmamalıdır. Belə olan halda Yeni Azərbaycan Partiyasının üzvləri Siyasi Şuranın iclasında partiyanın üzvlərinin əksəriyyətinin iradəsini ifadə edərək, islahatlar konsepsiyasına öz dəstəyini nümayiş etdirərək Prezident İlham Əliyevin islahatlarının eyni zamanda qanunverici hakimiyyət sahəsinə də gətirilməsinin məqsədəuyğunluğu qənaətini ifadə etdilər. Siyasi Şuranın bütün üzvləri bu məsələdə yekdil mövqe nümayiş etdirdilər. Vurğulanan fikir ondan ibarət oldu ki, Azərbaycanın parlamentinin də yenilənməsi, müasirləşməsi, islahatlar sferasına cəlb olunması Prezident İlham Əliyevin islahatlar konsepsiyasının uğurla həyata keçirilməsinə əlavə təminat kimi qiymətləndirilə bilər.

Əli Əhmədov deyib ki, YAP fəaliyyət göstərdiyi dövrdə həyatımızın ayrı-ayrı sahələri ilə əlaqədar taleyüklü məsələlərlə bağlı çox ciddi qərarların qəbul olunmasında vətəndaş mövqeyini, dövlətçilik məfkurəsini aydın şəkildə ifadə edib. Bu gün də YAP və partiyanın Siyasi Şurası vətəndaş mövqeyini, milli maraqların, dövlət maraqlarının bütün maraqlardan üstün tutulmasını nümayiş etdirərək partiyanın da geniş şəkildə təmsil olunduğu və çoxluq təşkil etdiyi qanunverici orqanın yenilənməsinin zəruriliyini aydın şəkildə ifadə etdi. Siyasi Şura bu zərurətdən irəli gələrək qanunverici orqanda YAP-ı təmsil edən deputat korpusuna parlamentin buraxılması xahişi ilə Azərbaycan Prezidenti İlham Əliyevə müraciət etməsini tövsiyə etdi. Məlumdur ki, Azərbaycan Konstitusiyasında 2017-ci ildə referendum nəticəsində edilən dəyişikliklər nəticəsində Azərbaycan Respublikası Prezidentinin parlamenti müəyyən şərtlər daxilində buraxmaq səlahiyyətləri təsbit edilib. Düşünürük ki, Prezidentin öz səlahiyyətindən istifadə edərək parlamenti buraxması qanunvericilik sferasında islahatların həyata keçirilməsi üçün əlverişli imkan yarada bilər. Bu da islahatlar konsepsiyasının daha geniş miqyasda, daha sistemli şəkildə həyata keçirilməsinə təminat verə bilər.

"YAP-ın Siyasi Şurasının qəbul etdiyi bu tövsiyə qərarından sonra partiyanı Milli Məclisdə təmsil edən deputat korpusunun üzvləri ilə görüş keçirildi. Parlamentdə YAP-ı təmsil edən deputatlarımız Siyasi Şuranın qəbul etdiyi qərara birmənalı şəkildə, yekdil olaraq hörmətini ifadə edərək və belə bir müraciətlə parlamentə məktub ünvanlamaq qərarına gəldilər. YAP-ın deputat korpusunun üzvlərinin əksəriyyəti müraciəti imzalayıb. Güman edirəm ki, yaxın zamanlarda həmin müraciət rəsmi şəkildə Azərbaycan Milli Məclisinə daxil olacaq. Hesab edirəm ki, Milli Məclisin rəhbərliyi parlamentin çoxluğunun iradəsinə hörmət nümayiş etdirərək bu məsələni parlamentin yaxın zamanlarda keçirilməsi planlaşdırılan plenar iclasında müzakirəyə çıxaracaq" deyə Əli Əhmədov qeyd edib.

YAP-ın Azərbaycanın siyasi arenasında bir çox yeniliklərə müəlliflik etdiyini bildirən Əli Əhmədov deyib ki, bu partiyanın yaranması Azərbaycanın siyasi həyatında 27 il bundan əvvəl baş vermiş ən böyük yeniliklərdən biridir. Mövcud olduğu illər ərzində YAP həm taleyüklü qərarlar qəbul etməsi, həm də yeni, orijinal yanaşmaları ilə həmişə diqqəti cəlb edib. YAP Azərbaycanın parlamentarizm tarixinə yeniliyi də gətirən ilk təşkilat olub. Azərbaycanda parlamentin buraxılması və növbədənkənar parlament seçkiləri ənənəsi bu gün YAP-ın qəbul etdiyi qərarla, - əgər bu qərar sonrakı instansiyalarda qəbul edilərsə, - reallaşmaq imkanı qazanacaq. Hamınıza yaxşı məlumdur ki, parlamentin buraxılması, növbədənkənar parlament seçkilərinin keçirilməsi dünyanın əksər ölkələrində çox tez-tez rast gəlinən, geniş istifadə olunan təcrübədir. Azərbaycanın siyasi həyatında ilk olmasına baxmayaraq, burada qeyri-adi heç nə yoxdur. Söhbət Azərbaycanın bütün həyatını, hakimiyyətin bütün sferalarını əhatə edən yeniləşmə, müasirləşmə, islahatlar konsepsiyasının əhatə dairəsinin genişlənməsindən və bu zəmində ölkəmizin daha sürətli inkişafı üçün daha əlverişli, daha etibarlı imkanların əldə olunmasından və həmin imkanlardan faydalanmaqdan gedir. İnanıram ki, Azərbaycan cəmiyyəti YAP-ın bugünkü təşəbbüsünü, Siyasi Şuranın, parlament fraksiyasının qəbul etdiyi qərarı hörmətlə qarşılayacaq və bununla da biz həm ölkəmizin daha da inkişaf etdirilməsi imkanlarını əldə etmiş olacağıq, həm də Azərbaycanın parlament və siyasi tarixində yeni bir ənənənin başlanğıcını qoyacağıq.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Müxalifət partiyaları YAP-ın təşəbbüsünü dəstəkləyirlər

## Partiya sədrləri yeni parlament seçkilərinin siyasi islahatların dərinləşəcəyinə və ölkənin inkişafına mühüm töhfə verəcəyini deyirlər

Dünən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının toplantısı keçirilib. İclasda Siyasi Şura parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsünü irəli sürüb. Toplantıdan sonra YAP sədrinin müavini-icra katibi Əli Əhmədov mətbuat konfransı keçirərək partiyanın Azərbaycan dövləti və cəmiyyəti üçün mühüm qərar qəbul etdiyini vurğulayıb.

Əli Əhmədov qeyd edib ki, ilin əvvəlindən Prezident İlham Əliyevin təşəbbüsü və imzaladığı sərəncamlarla əhəmiyyətli sosial layihələr həyata keçirilib və bu islahatlar cəmiyyət tərəfindən müsbət qarşılanıb: "Ancaq islahatlar həyatımızın bütün sferalarını əhatə etməlidir. Azərbaycanda hakimiyyətin iki qolunda - icra hakimiyyəti və məhkəmə hakimiyyəti sistemində mühüm islahatlar keçirilib. Bu xətt davam edir. İslahatların həmahəng olması, qarşıya qoyulan vəzifələrə nail olunması üçün YAP üzvləri belə qənaətə gəliblər ki, Prezidentin islahatları qanunverici hakimiyyət sferasından da kənarda qalmamalıdır: "YAP-ın Siyasi Şurası qərara aldı ki, Azərbaycan parlamentinin də yenilənməsi, müasirləşməsi islahatlar prosesinə aid edilsin. Parlamentdə YAP-ı təmsil edən deputatlar qərara gəldilər ki, Milli Məclisə müraciət ünvanlansın. Güman edirəm ki, parlament rəhbərliyi bunu nəzərə alıb, parlamentin plenar iclasında məsələni müzakirəyə çıxaracaq".

Günün müzakirə mövzusuna çevrilən bu məsələ ilə bağlı müxtəlif fikirlər səsləndirilir. Bəs görəsən, YAP-ın bu qərarını parlamentdə təmsil olunan müxalifət partiyaları necə qarşılayır?

### İslahatlar parlamentdə də aparılmalıdır

**Milli Məclisin deputatı, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev** bizimlə söhbətində YAP-ın qərarına hörmətlə yanaşdığını vurğuladı: "İslahatlar parlamentdə də aparılmalıdır. Prezident İlham Əliyevin müəllifi olduğu islahatlara təkcə icra strukturları deyil, Milli Məclis də qanunvericilik bazasından dəstək, kömək etməlidir. Yükün böyük hissəsini parlament üzərinə götürməlidir."

Deputat hesab edir ki, YAP-ın qərarı doğru addımdır. Hakim partiya konstitusion hüququndan istifadə edib belə bir addım atıb. Prezident İlham Əliyevin böyük islahatlar paketinin həyata keçirilməsi istiqamətində daha çevik qanunlar qəbul edən, yerlərdən iradəni parlamentə daha yaxşı daşıya bilən yeni parlamentin formalaşması çox normal haldır.

### YAP-ın təşəbbüsü islahatların daha da dərinləşməsinə xidmət edəcək

**Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə** qəzetimizə açıqlamasında bildirdi ki, əgər ölkədə hakim partiya olan YAP belə bir zərurəti vacib sayırsa, deməli, zamanın tələblərindən irəli gələn vacib dəyişikliklər edilməlidir: "Mən bütün islahatların tərəfdarıyam. Çünki Azərbaycanda idarəetmə sistemində yeni islahatlara, dəyişikliklərə başlanılıb. İdarəçiliyə yeni simalar, yeni təfəkkürə malik olan insanlar gətirilir. Bununla yanaşı parlament də bu dəyişikliyə uyğunlaşmalıdır".

Partiya sədri hesab edir ki, Milli Məclis yeni qüvvə ilə bu islahatları daha da sürətləndirməlidir. Deputatlar yeni çağırışlarla bağlı ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər: "Bu səbəbdən də mən YAP-ın Siyasi Şurasının qərarını dəstəkləyirəm və ümidvaram ki, bu qərar islahatların daha da dərinləşməsinə, ölkənin inkişafına xidmət edəcək".

### Bu addım ölkəmizdə gedən islahatların tərkib hissəsidir

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı** da Yeni Azərbaycan Partiyasının növbədənkənar parlament seçkiləri keçirilməsi ilə bağlı təşəbbüsünü dəstəkləyir:

"Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təşəbbüsü müsbət dəyərləndiririk. Düşünürəm ki, bu addım ölkəmizdə gedən islahatların tərkib hissəsi kimi qiymətləndirilməlidir".

### Qanuna zidd heç bir hal yoxdur

**Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa** YAP-ın təşəbbüsünü müsbət qarşılayıb:

"Hakim partiya səs çoxluğundan istifadə edərək belə bir qərar qəbul edə bilər. Seçkilərə bir il qalıb. Parlamentin buraxılması mümkündür və yenidən seçkilər təyin oluna bilər. Burada qanuna zidd heç bir hal yoxdur".

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# İlham Əliyevin islahatlar konsepsiyasına YAP-dan dəstək

*Əvvəli 1-ci səh.*

Prezident yeni inkişaf strategiyasının icrasını öz sahəsində böyük təcrübə qazanmış mütəxəssislərə, eyni zamanda gənclərdən ibarət peşəkarlar komandasına həvalə edib.

### Yeni parlamentin yeni vəzifələri nə olacaq?

İcraedici hakimiyyətdən sonra növbə qanunverici hakimiyyətdədir. Bəs islahatların parlament səviyyəsində davamını şərtləndirən səbəblər hansılardır?

İlham Əliyev çevik idarəçilik metoduna malik rəhbərdir. Yeni iqtisadi-siyasi situasiya ondan islahatları daha geniş miqyasda aparmağı və vacib qərarların yalnız icraedici orqan miqyasında deyil, həm də qanunverici hakimiyyət səviyyəsində də müasir meyarlarla operativ qəbulunu tələb edir. Elə Milli Məclisin əksər deputatları da hesab edir ki, islahatların ümumi ahənginə onların strukturunun da köklənməsinə mühüm zərurət var.

Nəzərə alaq ki, bu gün üzərində işlənən layihələr, proqramlar böyük strateji dövr üçün nəzərdə tutulur və onların əksəriyyəti qarşıdakı on ili əhatə edir. Seçkilərin öncəyə çəkilməsi də yeni islahatlar kursunun vacib proqramlarının icrasını tez bir zamanda başlamaq üçün parlamentin xalqdan yeni etimad mandatı almasına hesablanıb. Nəticə etibarilə, yeni parlament islahatların gedişinin daha da sürətlənməsinə və onun qanunvericilik bazasının təkmilləşməsinə rəvac verəcək.

Bir məqamı da vurğulayaq ki, Azərbaycan sosial-iqtisadi inkişafı hər zaman hüquqi-siyasi təkmilləşmə və demokratikləşmə ilə paralel aparıb. Bu iki istiqamət biri-birini tamamlayıb və dövlət quruculuğunun inkişaf vəhdətini təşkil edib. İqtisadi yüksəlişi olmayan cəmiyyətdə demokratik meyarların intişar tapması mümkün olmadığı kimi, mükəmməl hüquqi-siyasi prinsiplərin prioritet olmadığı dövlətlərdə də əsaslı sosial-iqtisadi nailiyyətlər əldə edilə bilməz. Bu baxımdan demokratik, şəffaf seçki prosesini davamlı olaraq təkmilləşdirən iqtidar növbəti azad və ədalətli seçki vasitəsilə sosial-iqtisadi inkişafın dayanıqlılığına təkan verəcək.

Parlament seçkilərinin əsas məğzi vətəndaşların siyasi alternativlər sırasında inam bəslədikləri partiyaların namizədlərinə, eləcə də bitərəflərə səs verməsi və ən üstün etimadı qazananların qalib elan olunmasıdır. YAP da növbəti seçkilərə böyük əminliklə, zəfərinə birmənalı inamla gedir. Cəmiyyətdə Heydər Əliyev Partiyası kimi tanınan, Prezidentin islahatlar kursunun siyasi istinadgahlarından biri olan hakim təşkilatın və onun dəstəklədiyi bitərəflərin qələbəsi həm də ictimaiyyətin iqtidara olan münasibətini ifadə edəcək.

Seçki - bir yarışdır. Və bu yarışın son 25 il ərzində qalibləri məhz müstəqilliyin, dövlətçiliyin, inkişafın alternativsiz təminatçısı olan hakim siyasi kursun təmsilçiləridir.

Qarşıdakı parlament seçkilərinin nəticələri də şübhəsiz ki, islahatlar kursuna xalqın möhtəşəm dəstəyinin təntənəsinə, dövlət quruculuğunun yeni inkişaf, nailiyyət salnaməsinin başlanğıcına çevriləcəkdir.

***İxtiyar HÜSEYNLİ, "Azərbaycan"***

# Niderlandda "Bitməyən əzab" sənədli filminin təqdimatı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hücum diplomatiyası tövsiyəsinə uyğun olaraq, Niderland Krallığında Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası (DK) və Diasporla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun doğurduğu fəsadlar, eləcə də Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, dövlət terrorçuluğu və silahlı separatçılıq siyasəti nəticəsində əsir və itkin düşmüş, girov götürülmüş azərbaycanlıların, xüsusilə mülki əhalinin məruz qaldığı etnik təmizləmə, qətliam və soyqırımı faktlarının sənədli materiallar əsasında beynəlxalq aləmə çatdırılması üzrə silsilə tədbirlər keçirilir.

AZƏRTAC xəbər verir ki, tədbirlərdə DK-nın və Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə birgə hazırladığı, erməni silahlı birləşmələri tərəfindən azərbaycanlı qadınlara, uşaqlara və qocalara qarşı törədilən ağlasığmaz vəhşilikləri, qətl və işgəncə faktlarını əks etdirən ingilis dilində "Bitməyən əzab" sənədli filminin təqdimatı olub.

Tədbirlərdə ermənilərin müxtəlif dövrlərdə Azərbaycan xalqına qarşı törətdikləri cinayət əməlləri, o cümlədən terror, soyqırımı, vandalizm, əsir və girovlara münasibətdə beynəlxalq hüquq norma və hüquqların pozulması və digər faktları əks etdirən Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən müxtəlif dillərdə hazırlanmış kitab, broşür, elektron və digər əyani vəsaitlərin sərgisi təşkil edilib.






Rotterdam şəhərində "Marriot-Rotterdam" hotelində təşkil olunmuş tədbir Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Sonra Azərbaycanın Dövlət himni səsləndirilib.

Tədbirdə Niderlandda yaşayan azərbaycanlılar və türklərlə yanaşı, burada fəaliyyət göstərən yəhudi, yunan, Pakistan, Özbəkistan icmalarının, Baltikyanı və digər ölkələrin təmsilçiləri, eləcə də xarici və Azərbaycan kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

"Bitməyən əzab" sənədli filminin təqdimatından əvvəl DK-nın İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Aytən Tarverdiyeva, Niderlandda fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərləri - Benelüks Azərbaycanlıları Konqresinin sədri Elsevər Məmmədov, Avropa Azərbaycanlıları Konqresinin sədri Sahil Qasımov, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi Mayisə Ağamirzəyeva, Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin sədri-layihə rəhbəri Rada Abbas çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, bu münaqişə nəticəsində torpaqlarımızın işğalı, ölkəmizin məruz qaldığı vandalizm və yandırılmış ərazilər, eləcə də etnik təmizləmə barədə geniş məlumat veriblər. Qeyd ediblər ki, ölkəmizin sülhsevər səylərinə baxmayaraq, Ermənistanın destruktiv mövqeyi münaqişənin həllinə mane olur.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş diaspor quruculuğunun dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən olduğu diqqətə çatdırılaraq bildirilib ki, Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Çıxışlarda, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkəmizin son illər əldə etdiyi nailiyyətlərə verdiyi töhfələr vurğulanıb.

Niderland-Türk Federasiyasının rəhbəri Murat Gedik, "Belçika Aydin Haber" informasiya resursunun rəhbəri Cəlil Gündoğdu, Niderland "Sintluca Boxtel" İncəsənət İnstitutunun müəllimi, azərbaycanlı rəssam Rasim Hüseynov və digər iştirakçılar da çıxış edərək Dağlıq Qarabağ münaqişəsi nəticəsində azərbaycanlılara qarşı aparılan işgəncə, qətl və soyqırımı faktlarından, onların doğma yurdlarından qovulmasından söz açıb, bu istiqamətdə məlumatların dünya birliyinin diqqətinə çatdırılması ilə bağlı fəaliyyətə dair fikirlərini bildiriblər.

Qeyd olunub ki, öz doğma torpaqlarından didərgin düşmüş bir milyondan çox azərbaycanlı fundamental insan haqlarından məhrum olub, erməni hərbi təcavüzü nəticəsində beynəlxalq humanitar hüququn norma və prinsipləri kobud şəkildə pozulub, ən çox zorakılığa mülki əhali, xüsusən qadınlar və uşaqlar məruz qalıb. Görünməmiş işgəncələrlə üzləşən qadın, uşaq və qocaların xatirələrinin əbədiləşdirilməsi, müharibə qurbanlarının və şahidlərin özlərinin dili ilə beynəlxalq ictimaiyyətə çatdırılması vacibdir.

Tədbirdə DK-nın arxiv materialları və sənədli faktları əsasında çəkilmiş belə filmlərin daha çox hazırlanması və bütün dünyada yayımlanmasının əhəmiyyətinə toxunulub. Diqqətə çatdırılıb ki, tarix incəsənətin dili, yazılar və filmlər vasitəsilə yadda qalacaq, əks təqdirdə unudular. Bu vasitələrlə erməni vəhşiliyi barədə gələcək nəsillərimizi və beynəlxalq ictimaiyyəti məlumatlandırmalıyıq. Azərbaycanlılara qarşı filmdə göstərilən əzab və zülmlərdən dünya insanlığı utanacaq. Azərbaycanlıların üzləşdikləri bu zülm və işgəncələri törədənlər ədalət qarşısında mütləq cavab verməlidirlər. Azərbaycanın haqq səsinin bütün dünyaya çatdırılması, xüsusən Niderlandda eşitdirilməsi son dərəcə vacibdir. Çünki fundamental insan hüquqlarının qorunmasının beşiyi hesab edilən, eləcə də Beynəlxalq İnsan Haqları Məhkəməsinin yerləşdiyi Niderlandda belə bir tədbirin keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Bəşəriyyətə, insanlığa qarşı törədilmiş belə vəhşiliklərə göz yummaq olmaz.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir" sözləri səsləndirilib.

Sonra "Bitməyən əzab" sənədli filmi nümayiş olunub.

Filmin nümayişi başa çatdıqdan sonra Mayisə Ağamirzəyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında nümayiş etdirdiyi qətiyyətin dünya azərbaycanlılarının böyük məmnunluğu ilə qarşılandığını deyərək xatırladıb ki, dövlət başçısı həmin tədbirdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açdı, diqqəti Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə yönəltdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi dörd qətnamənin 25 ildən bəri yerinə yetirilmədiyini vurğuladı. Silahlı Qüvvələrimizin Ali Baş Komandanının dediyi "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri hamımızın ürəyindən xəbər verir.

Mayisə Ağamirzəyeva vurğulayıb ki, bu qətiyyətli mövqe bütün dünya azərbaycanlıları tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Diasporumuzun üzvləri Azərbaycan Prezidentinin hücum diplomatiyası tövsiyəsini bir daha xatırladaraq bu istiqamətdə bundan sonra da əzmlə çalışacaqlarını, Azərbaycanın haqq səsinin beynəlxalq aləmə çatdırılması üçün səylərini əsirgəməyəcəklərini, daim müstəqil dövlətimizin və Prezidentin ətrafında sıx birləşəcəklərini bildiriblər.

Qeyd edək ki, Niderlandın Haaqa şəhərində də Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyi və Haaqada fəaliyyət göstərən "Avrasiya Türk Kadınları Fondu"nun birgə təşkilatçılığı ilə "Bitməyən əzab" filminin təqdimatı keçirilib. Təqdimatda yerli azərbaycanlı və türk icmalarının nümayəndələri iştirak ediblər.

"Avrasiya Türk Kadınları Fondu"nun rəhbəri Fatma Aktaş və DK-nın İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, Azərbaycan Respublikasının bu problemin həlli ilə bağlı ədalətli mövqeyinin beynəlxalq aləmə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər barədə danışıblar. Fatma Aktaş təqdim olunan filmin təbliğat baxımından əhəmiyyətini qeyd edərək DK-nın və Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin bu sahədə fəaliyyətinin təqdirəlayiq olduğunu vurğulayıb. O bildirib ki, "Avrasiya Türk Kadınları Fondu"nun səyləri nəticəsində Dağlıq Qarabağda bitən məşhur xarı bülbül çiçəyi müharibənin qurbanı olmuş Azərbaycan qadınlarının simvolu kimi qəbul olunması məqsədilə Niderlandın aidiyyəti dövlət qurumu tərəfindən patentləşdirilib. Bu simvolu əks etdirən medalyon, yaxa nişanı, geyimlər və digər əyani vəsaitlər beynəlxalq aləmdə nümayiş etdirilərək qadınların dünyaya ədalətə çağırış səsi kimi müxtəlif tədbirlərdə yayımlanacaq.

Tədbirdə "Bitməyən əzab" filminin digər Avropa ölkələrində də nümayişi təklif olunub, Dağlıq Qarabağ münaqişəsinə dair müxtəlif dillərdə kitablar və disklər iştirakçılara təqdim edilib.

# Hədəf daha qüdrətli, daha rifahlı Azərbaycandır!

## Prezident İlham Əliyevin Sumqayıtın və BDU-nun yubileylərindəki çıxışları haqqında bəzi qeydlər

*Əvvəli 1-ci səh.*

Statusda deyilir: Hörmətli oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, uzun müddətdir hakimiyyət təmsilçiləri iqtidarla yanaşı, müxalifətdə də kadr və təşkilati islahatların vacibliyi haqqında çıxışlar edirdi, 25-30 ildir ki, eyni liderlərin rəhbərlik etdiyi ənənəvi müxalifətin yenilənməsi ilə bağlı müzakirələr aparırdı. Təəssüf ki, müzakirələrə qatılmaq əvəzinə, əks tərəfdən yalnız anlaşılmaz və inkarçı münasibət görürük. Nə gizlədək, bəzən iqtidar komandasında da belə müzakirələrə könülsüz qoşulanlar tapılırdı. Cənab Prezident Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışında bu mövzuya toxunaraq vurğuladı ki, Azərbaycanın müxalifət düşərgəsində bu gün ciddi bir boşluq yaranıbdır, ölkədə sağlam müxalifətin yaranmasına, dövlətçiliyə sadiq, xalqa bağlı olan, doğrudan da konstruktiv təkliflər verə bilən, hakimiyyəti konstruktiv formada tənqid edən, alternativ inkişaf yolları göstərən müxalifət yaranarsa, biz buna yalnız sevinərik. Cənab Prezidentin Sumqayıtda və BDU-nun yubileyində etdiyi çıxışlardakı fikirləri, ritorikası, səsləndirdiyi qətiyyətli çağırışlar, düşünürəm ki, həm sağlam əqidəli opponentlərimizə, həm hər iki düşərgənin islahat müəlliflərinə, həm də bu istiqamətdəki müzakirələrə könülsüz qoşulan siyasətşünaslara ciddi düşünmək üçün xeyli mövzu verir. Hesab edirəm ki, cənab Prezidentin son iki tədbirdəki çıxışları iqtidar komandasının hər bir üzvü və mövcud hakimiyyətin aktiv dəstəkçiləri üçün master-klas sayıla bilər.

Çıxışlarda vurğulanan əsas məqamlar haqqında bir qədər təfsilata varmaq istəyirəm:

1. Azərbaycan Prezidentinin çıxışlarında vurğulanan və əsaslandırılan əsas fikirlərdən biri ondan ibarət idi ki, bugünkü Azərbaycan Heydər Əliyevin 1969-cu ildən başlanan və ardıcıl şəkildə həyata keçirdiyi məqsədyönlü fəaliyyətinin nəticəsidir. Keçən əlli ildə Azərbaycanın geridə qalmış aqrar respublikadan inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə çevrilməsi, ictimai-siyasi və mədəni həyatın bütün sahələrində hərtərəfli inkişaf etməsi, ölkənin milli maraqlarının təmin edilməsi, SSRİ-nin aparıcı respublikalardan, hazırda isə regionun aparıcı dövlətlərindən birinə çevrilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyevin respublikamızdakı ilk hakimiyyəti illərində Azərbaycanda ali məktəblərin və ali məktəb məzunlarının ümuməhali sayına nisbəti kəskin şəkildə artaraq inkişaf etmiş Qərb dövlətlərinin göstəricilərinə yaxınlaşmışdı. Azərbaycan ədəbiyyatının, incəsənətinin, mədəniyyətinin, elminin, təhsilinin, səhiyyəsinin sovet hakimiyyəti illəri ərzində ən gözəl nəticələri və qiymətləndirilməsi də məhz bu dövrə təsadüf edirdi. Prezidentin bu fikirləri ilə mübahisə etmək mümkünsüzdür: Heydər Əliyevin yaratdığı güclü kadr potensialı bu gün də ölkəmizin, müstəqil dövlətimizin uğurlu inkişafını təmin edir.

Bu illərdə respublikada onlarla elm, mədəniyyət ocağı inşa olunmuş, onları təmsil edən xadimlər respublikanın və Sovet İttifaqının ali mükafatları və fəxri adları ilə təltif edilmiş, Azərbaycan mədəniyyətinin uğurları Sovet İttifaqının hüdudlarını aşaraq dünya miqyasına çıxmışdır. Prezidentin qeyd etdiyi kimi, "Heydər Əliyevin rəhbərliyi dövründə - 13 il ərzində Azərbaycan hər il "Qırmızı keçici bayraq" alırdı. Bu, bir daha onu təsdiq edir ki, onun rəhbərliyi ilə Azərbaycan böyük və uğurlu yol keçmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda respublikamız SSRİ-də ən sonuncu yerlərdə idi. Lakin o, Azərbaycanı böyük inkişafa qovuşduraraq ən qabaqcıl yerlərə qədər ucaltdı".

Heydər Əliyevin birinci hakimiyyəti illərində həm də ölkənin iqtisadi inkişaf trendləri düzgün təhlil edilərək SSRİ-nin xammal əlavəsi statusundan çıxması və yerli sənaye müəssisələrinin inkişafı istiqamətində ciddi addımlar atılmışdı. Bununla yanaşı, Azərbaycanın müsbət demoqrafik göstəricilərinin saxlanması və daha da yaxşılaşması istiqamətində artan digər addımlar - əhalinin məşğulluğunu təmin etmək məqsədilə respublikanın şəhər və qəsəbələrində yaradılan çoxsaylı sənaye obyektləri, Sovet İttifaqında ən qabaqcıl soyuducu və kondisioner zavodlarının Bakıda qurulması, ölkə üzrə çoxsaylı yerli aqrar sənaye komplekslərinin yaradılması, Nabrandan Lənkərana qədər Xəzər sahilində neçə-neçə ümumittifaq əhəmiyyətli turizm-sanatoriya komplekslərinin salınması və s. tədbirlər xüsusi qeyd edilməlidir. Neft sənayesinin gələcəyini təmin etmək üçün dərin özüllər zavodu qurulmuş, dənizdə neft-qaz kəşfiyyatı işləri aparılmışdı. Bu, bir həqiqətdir ki, o zaman kəşf edilmiş yataqlar olmasaydı, sonradan ölkəmizin iqtisadi və geosiyasi müstəqilliyinin əsası olan "Əsrin müqaviləsi"nin imzalanması da mümkün olmazdı. Artıq 80-ci illərin ortalarına doğru Azərbaycan büdcəsinin neftdən asılılığına, demək olar ki, son qoyulmuşdu - o zaman üçün yeni modern texnologiyalara malik çoxsaylı müəssisələr qurulmuşdu ki, bu müəssisələr aqrar sənaye kompleksləri ilə birlikdə respublika büdcəsinin böyük hissəsini formalaşdırırdı. Təəssüf ki, 80-ci illərin sonları, 90-cı illərin əvvəllərində qısa zaman kəsiyində ölkəyə rəhbərlik edənlər bu əlverişli iqtisadi zəmini möhkəmlətmək, onun üzərində iqtisadi suverenliyi təmin etmək əvəzinə mövcud sistemi dağıtmaqla məşğul oldular. Bu dağıdıcılığa xalqın cavabı Heydər Əliyevin xilaskarlıq missiyası ilə hakimiyyətə dəvət edilməsi oldu. BDU-dakı çıxışında cənab Prezidentin qeyd etdiyi kimi, "məhz 1970-ci illərdə Heydər Əliyevin gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalanda Azərbaycan xalqı ona müraciət etməzdi".

2. Heydər Əliyev hakimiyyətdə olduğu birinci dövrdə Azərbaycanın demoqrafik göstəricilərinin gündən-günə yaxşılaşması faktoru, ölkədaxili miqrasiyanın düzgün nizamlanması, cənab Prezidentin Sumqayıtdakı çıxışında qeyd etdiyi kimi, Dağlıq Qarabağda azərbaycanlı əhalinin nisbətini iki dəfə artırmışdı. Ölkədə azərbaycanlı əhalinin artım sürəti ermənilərin İrəvan şəhərinə və Rusiyanın mərkəzi əyalətlərinə emiqrasiya templərini də nəzərə alsaq, Dağlıq Qarabağ probleminin təbii şəkildə həllini yaxınlaşdırırdı. Dünya tarixinin belə nümunələrlə zəngin olduğunu xatırlatmağa, yəqin ki, xüsusi ehtiyac yoxdur, elə bizim bəzi tarixi torpaqlarımız da məhz ayrı-ayrı zamanlarda həmin ərazilərdə demoqrafik balansın əleyhimizə pozulması ilə itirilib. Heydər Əliyevin hakimiyyəti illərində Dağlıq Qarabağda azərbaycanlıların üstünlük təşkil etdiyi ikinci rayon yaradılmış, Dağlıq Qarabağın Azərbaycana hərtərəfli inteqrasiyası üçün bir sıra digər addımlar atılmış, separatçılıq meyillərinin qarşısı qətiyyətlə alınmışdı. Azərbaycan ziyalıları tərəfindən həmin dövrdə erməni millətçilərinin əsassız iddialarına cavab verilməsi üçün hərtərəfli münbit şərait yaradılmışdı. Erməni lobbisinin Heydər Əliyev əleyhinə fəaliyyətinin, onun vəzifədən uzaqlaşdırılması üçün məkrli planlar qurmasının əsas səbəbləri də elə məhz bunlar idi.

Məhz Heydər Əliyev hakimiyyətdən getdikdən sonra erməni separatçıları Azərbaycana qarşı geniş separatçı kampaniya təşkil etmək, öz iddialarını reallaşdırmaq üçün fürsət qazandılar. Ona görə də Azərbaycanda ermənilərin separatçılıq iddiaları əleyhinə baş qaldırmış kortəbii vətənpərvərlik fəaliyyəti, sonrakı illərdə məhz Heydər Əliyevin SSRİ rəhbərliyindən istefa verməsinə etiraz olaraq tədricən ümumxalq hərəkatına, daha sonra isə onun liderliyi ilə milli azadlıq hərəkatına çevrilmişdir. Bu səbəbdən də xalq hərəkatının ilk illərində Azərbaycana ezam olunmuş mərkəzi mətbuat nümayəndələri reportajlarında xalq hərəkatında "Heydər Əliyev izi" axtarır, hərəkatı mənfi çalarlarla təqdim edərək onu əliyevçilik (aliyevşina) kimi qiymətləndirirdilər. Bəli, bu gün Azərbaycanın ən yeni siyasi tarixini öyrənənlər bu faktı etiraf etməyə məcburdurlar: aksiyalar məhz Heydər Əliyevə simpatiya bəsləyən insanların etiraza qoşulması ilə kütləviləşmiş və tədricən ümumxalq hərəkatı xarakteri almışdı. "Yeni Azərbaycan Partiyası niyə və necə yarandı?" başlıqlı yazımda qeyd etdiyim kimi, "Milli azadlıq hərəkatının mərkəzinin Bakıdan Naxçıvana keçməsi və hərəkatın başında Heydər Əliyev kimi təcrübəli liderin - görkəmli siyasi və dövlət xadiminin dayanması qısa zaman kəsiyində Azərbaycan cəmiyyətində milli qurtuluş ideyası ətrafında böyük təmərküzləşməyə səbəb oldu".

3. Təəssüf ki, xalq hərəkatının əsas təşkilatlanma forması olan AXC 1992-ci ildə mövcud reallıqlara maneçilik törədərək, Milli azadlıq hərəkatı iştirakçılarına öz Ümummilli Liderini - Heydər Əliyevi hakimiyyətə gətirməsi işinə süni əngəllər yaratmış, "mənfur yaş senzi" qadağası ləğv edilmədən "seçkiyə" gedilmişdi. Hakimiyyətdə olduqları qısa müddət ərzində AXC-Müsavat hakimiyyətinin xəyanətkar siması, antidemokratik mahiyyəti ifşa edildi. Bu cütlüyün yarıtmaz siyasəti nəticəsində Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Xalq Cəbhəsi vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı... Görəndə ki, özlərini qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl bizi xilas et. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas et, çünki artıq gəlirdilər bunları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri guya vəzifələrini dondurdular. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı".



4. AXC-Müsavat hakimiyyətində ölkə niyə dağılmaq həddinə çatdı? Əbülfəz Elçibəyin komandasında təmsil olunanlar tutduqları postlara nə qədər adekvat və layiq idilər? Niyə bir il əvvəl hakimiyyətə gəlişi önündə süni maneə yaratdıqları, 6 ay əvvəl silahlı çevrilişlə Naxçıvan Ali Məclisi sədrliyindən uzaqlaşdırmaq istədikləri Heydər Əliyevin xilaskarlıq missiyasına möhtac oldular?

Məşhur frazada deyildiyi kimi, "hər şeyi kadrlar həll edir". Meydan hərəkatının nəticəsi olaraq ölkənin ən ali postunda əyləşmiş Əbülfəz Elçibəy ona qədər heç bir müəssisəyə rəhbərlik etməmişdi, heç bir vəzifə tutmamışdı, Əlyazmalar İnstitutunda adi bir elmi işçi olmuşdu. Elçibəyin "cavanları başıma yığıb təzədən inqilab edəcəyəm", "tankın qabağında dayanan oğlanlar pulun qabağında dayana bilmədi", "qanunları pozmaq olmaz, amma yan keçmək olar", sonrakı müsahibələrində "o dövrdəki prezidentlik prezidentlik deyildi, amma mən yenidən prezident olacağam", "getməyib nə etməliydim, Surət məni öldürməliydi?" kimi "aforizmləri" onların idarəçilik fəlsəfəsinin nə qədər primitiv olmasını, hər hansı məzmun, prinsip və mahiyyətdən - substansiyadan xaliliyini göstərməklə yanaşı, həm də bu komandanın zəifliyinin, acizliyinin, səriştəsizliyinin acı etirafları idi. Cənab Prezidentin dediyi kimi, Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə qoyaraq qaçmışlar. Halbuki "liderin vəzifəsi dövləti qorumaq, xalqla bir yerdə olmaqdır. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir".

Müxalifətin yenilənmə zərurəti haqqında yazılara küskün və bədbin reaksiya verən Pənah Hüseynin AXC hakimiyyəti zamanı baş nazir kimi ilk açıqlamalarından biri iqtisadi bloka dair bütün məsələlərin Nazirlər Kabinetində həll edilməli olduğu ilə bağlı idi. Elçibəyi "Maks Veberi mütaliə etməsi" ovsunlamış Pənah Hüseyn, görəsən, o zaman hiperinflyasiya vəziyyətinə düşən ölkəni və onun iqtisadiyyatını idarə etmək üçün hansısa proqrama, yaxud da peşəkar səriştəyə, biliklərə malik idimi? Cavab Prezidentin çıxışında göstərilib: "Baş nazir, - o da elmi işçi idi. O da heç bir dissertasiya müdafiə edə bilməmişdi. Hamı yaxşı bilir, indi bu, sirr deyil, mövsümi ticarətlə məşğul olan adam baş nazir təyin edilmişdi. Məhz onun dövründə "otkat" sözü bizim lüğətimizə daxil edildi".

Bu ara vaxtilə 90-cı illərin ikinci yarısında müxtəlif mətbu orqanların iranlı biznesmenlər, qızıl sikkələr, xalçalar, tramvay xətləri haqda araşdırmalarını yada salmaq olardı.

O zaman dövlətin ikinci siması, İsa Qəmbəri AXC hakimiyyətinin ən intellektual fiquru sayırdılar. Bu intellektual fiqur düz 11 il aspiranturada təhsil almış, bir dissertasiyanı belə müdafiə edə bilməmişdi. Parlamentin səlahiyyətləri qanunsuz olaraq Mili Şura tərəfindən mənimsənilmişdi. Spiker, özü haqqında çoxbaşlı "hələ ki ikinci" başlıqlı yazılar sifariş etdirən İsa Qəmbər isə gah dramatik, gah tragikomik səhnələşdirmələrin nümayiş olunduğu teatrı andıran parlament iclaslarında müəyyən dövrdən sonra hakimiyyətdə təmsil olunanları belə müxtəlif bəhanələrlə birinci şəxsə qarşı yönəldir, "özünüz əlaqə saxlayın, mən vasitəçi olmaqdan bezmişəm" kimi mesajlar verirdi.

Bu gün sosial medianın imkanları hesabına özünü "ana müxalifət" elan etmiş Əli Kərimli AXC-Müsavat hakimiyyətində dövlət katibi kimi mühüm postda təmsil olunurdu. Sosial media istifadəçiləri dövlət katibi olduğu zaman ona həvalə olunmuş mühüm dövlət əhəmiyyətli bir tapşırığı - dövlət sirrini necə faş etməsini artıq özünə xatırladıblar. Vaxtilə eyni düşərgədə olduqları İsa Qəmbərə yaxın media quruluşlarında onun hansısa tenderdə "lazımi" şirkəti qalib elan etmək üçün şəxsən maşın sürməsindən yazmışdılar, iddia edilirdi ki, belə sürücülük dövlət katibinə kifayət qədər - beşrəqəmli məbləğdə pul qazanmaq imkanı veribmiş, özü də hiperinflyasiyaya məruz qalmış manatla deyil, xarici valyuta ilə. Beləcə mebel zavodunun keçmiş komsomol fəalı qısa müddətdə ölkənin ən zəngin şəxslərindən birinə çevrilə bilmişdi. Bu zənginliyin üzərinə illərlə müxtəlif fondların vasitəsilə alınıb silinən qrantlar da, "Azadlıq" qəzetinin leqal və illeqal gəlirləri də daxil idi. Bu gəlirlər ona sonrakı dövrdə media maqnatına çevrilmək, müxtəlif nəşrlərdə qurduğu jurnalist şəbəkəsi vasitəsilə öz sədri Elçibəyi hakimiyyətdən və partiya sədrliyindən devirmək istəyi yaratmışdı. Deyilənə görə, sonuncunun ölüm xəbəri Bakıya daxil olan gün Əli Kərimli onun haqqında inanılmaz dərəcə nifrətlə yoğrulmuş yazılar yazdırmaq şansını belə buraxmamışdı.

Prezident İlham Əliyevin bu sözləri tarixi faktlardır: "Əbülfəz Elçibəy xəstələnəndə ən çox sevinən elə o idi. Mən bunu dəqiq bilirəm, bu məlumat var. Sevinirdi ki, xəstələnib öləcəkdir, bu da keçəcəkdir onun yerinə".

Bəs izlədiyi yola, liderinə xəyanət etmiş, üzvü, sonra da rəhbəri olduğu partiyanın bir neçə yerə parçalanmasına səbəb olmuş şəxs öz siyasi aktuallığını necə qoruya bilib? "Əli Kərimli və radikal ətrafı bəraət axtarışında" yazımda qeyd etdiyim kimi, bu şəxslərin real sosial bazası olduqca məhduddur, bir çox hallarda saxta sənədlərlə Avropaya göndərilib bədbəxt edilmiş miqrantlardan və ya ümumən virtual, saxta hesablardakı profillərdən ibarətdir. Təsadüfi deyil ki, öz açıqlamalarında da bildirdiyi kimi, Əli Kərimli və radikal antimilli ətrafı sosial şəbəkələrdə izləyicilərinin yarıdan çoxunu itiriblər. Çünki "Facebook" sosial şəbəkəsi administrasiyası bu il 5,4 milyard saxta hesabı bağlayıb. "Saxta, manipulyasiya məqsədilə yaradılan hesabları aşkarlayaraq bloklamaq qabiliyyətimizi gücləndirmişik" - internet şirkəti hesabatında bildirir. Yəni Əli Kərimli və radikal antimilli ətraflarının izləyici və bəyənmə itkiləri "Facebook" şəbəkəsinin öz araşdırmasının, dezinformasiyaya qarşı effektiv mübarizəsinin nəticəsidir.

Bu şəxslər öz əsas təbliğatlarını sosial media üzərində qururlar. Fakta, jurnalist etikasına istinad etməyə qanunlar və ictimai nəzarət mexanizmi ilə məcbur edilən ənənəvi mediadan fərqli olaraq, sosial mediada ani emosional halət, nə şəxsi, nə də ictimai yaddaşa istinad etməyən "feyk nyus" rahatlıqla əsas trend ola bilər. Sosial media ilə sıx vəhdət ənənəvi, xüsusən internet medianı da bəzən yanlış trendlərin müşayiətçisinə çevirir. Azərbaycan nümunəsində 2014-cü il avqust, 2015-ci il Nardaran hadisələri ərəfəsində, müəyyən mənada UEFA-nın Bakıda keçirilən son yarımfinal görüşləri zamanı belə manipulyativ media trendləri ilə üz-üzə qalmışıq. Adamların bütün səfərbərlik, daha dəqiqi, manipulyativ gücü bundadır. Bu güc isə dünyada "feyk nyus"a, manipulyasiyalara qarşı aparılan mübarizə sayəsində itirilməyə məhkumdur. Çünki real dəstəyi, sosial bazası, cəmiyyətdə etimad bəslənən siyasətçi imici olmayan, ən kritik məqamlarda qaçmağa üz tutan və ya isterikaya düşən, birləşdirməyi deyil, dağıtmağı bacaran bir şəxsin ciddi siyasi iddialar reallaşdırması, sadəcə, mümkün deyil. "İndi son hadisələr də göstərdi ki, o, hansı hünərə sahibdir. Yəni bu isterika, bu paranoya, bu qorxaqlıq, - özünü lider sayan hansı adam özünə rəva bilər ki, bunu nümayiş etdirsin və ondan sonra bütün millətə bəyan etsin ki, mənə qarşı zor tətbiq ediblər... Bax bu adam prezidentlik iddiasında olub və bu gün vaxtilə xalq hərəkatı tərəfindən yaradılmış Xalq Cəbhəsinə rəhbərlik etməyə çalışır", - cənab Prezidentin təsbiti, göründüyü kimi, kifayət qədər əhatəlidir.

Çıxışda adı çəkilməsə də, Prezidentə cavab verməyi özünə "mənəvi borc" bilən, son yazılarında Ümummilli Liderə böhtan atmaqdan çəkinməyən Cəmil Həsənli haqda kiçik xatırlatma etmək istərdim. Bu həmin Cəmil Həsənlidir ki, parlament kürsüsü müqabilində həm çıxışlarında, həm də kitablarında indi və əvvəl ən ağır ifadələrlə tənqid etdiyi Heydər Əliyevi Ümummilli Lider adlandırırdı. Bu həmin Cəmil Həsənlidir ki, 1990-cı illərin sonları - 2000-ci illərin əvvəllərində o zaman AXCP sədri Ə.Elçibəylə münasibətləri gərgin olan İsa Qəmbərin və Əli Kərimlinin müdafiəsinə yazılar həsr edir, Kərimlini tənqid edən elçibəyçi jurnalistləri aşağılamaqdan belə çəkinmirdi. Elçibəyçilərin Əli Kərimli haqqında tənqidlərini isə "qaragüruhun Mirzə Cəlilə hücumu" ilə müqayisə edirdi. Elçibəyə və elçibəyçilərə belə ikrahamiz münasibətin motivləri barədə isə indiyədək səslənmiş ehtimallar üzərində geniş dayanmaq istəməzdim.

Qeydlərimin əvvəlində bildirdiyim kimi, cənab Prezidentin çıxışları bir master-klas və fəaliyyət proqramı səciyyəsindədir. Çünki çıxış bizim hədəfləri, hədəflərə çatmanın yollarını, hədəflər önündəki əngəlləri, iqtidarın opponentlərini və ölkənin xarici düşmənlərini bir daha xatırladır. Sirr deyil ki, hazırda özünü iqtidarın dəstəkçisi kimi göstərməyə çalışan bəzi cığırdaşlarımız polemikanın istiqamətini bilərəkdən sapdırmağa, müzakirələri iqtidardaxili hansısa ziddiyyətlərə fokuslamağa can atırlar. Mən onları cənab Prezidentin çıxışlarının məntiqinə diqqət etməyi, siyasi opponentlərə pas ötürməyi dayandırmağa dəvət edirəm.

Sirr deyil ki, siyasi opponentlərimizə yaxın qruplarda yer alanlar bəzən ölkənin düşmənlərinə açıq simpatiya nümayiş etdirməkdən çəkinmirlər. Biz bunu Azərbaycan hər dəfə beynəlxalq yarışlarda yer tutanda səhvən erməni tərəfə azarkeşlik edənlərin siyasi müxalifətdə təmsil olunanların ailə üzvləri arasından aşkarlanması zamanı da, Saakyanla, Mailyanla eyni lojaları və baxışları bölüşənlərin kimliyi ortaya çıxanda da, Azərbaycan Prezidentinin uğurlu diplomatik həmlələrlə Ermənistan rəhbərliyini küncə sıxdığı vaxtlar bu uğuru sabotaj etmə cəhdlərini müşahidə edəndə də görmüşük. Bu şəxslərdən iqtidarın uğurlarını etiraf etməyi gözləmirəm. Amma onları ən azı ümummilli hədəflər naminə bir olmağa, ümumi işə dəstək olmağa, dəstək ola bilməyəndə də sabotajçı olmamağa dəvət edirəm. Ümummilli mənafelər sferası bizim rəqabət meydanımız deyil, bir-birimizə dəstək, ötürmələr meydanımızdır.

Azərbaycan Prezidentinin son iki çıxışının əsas yekunu budur: uğurlarımız faktdır, lakin dayanmaq olmaz, biz daha qüdrətli, daha rifahlı bir Azərbaycan qurmalıyıq. Bu hədəfə doğru irəliləyərkən keçmiş illərin nə uğurlu səhifələrini, nə də ki, acı xatirələrini; nə ölkəni idarə edənlərin uğurlarını, nə də səriştəsizliklərini; nə siyasi qətiyyətin nəticələrini, nə də səhlənkarlıqların fəsadlarını unutmalıyıq. Qarşıdan gələn müddətdə milli tariximizin bütün dərslərini və yaşana biləcək fəsadları göz önünə almalı, Ümumazərbaycan məsələlərində dövlətçiliyə xidmət edənləri də, düşmənlərimizlə bir sırada yer alanları da, belələrindən qəhrəman düzəldənləri də yaxşı tanımalıyıq. Biz - Azərbaycanın inkişafına məsul olan iqtidar komandası dövlətçiliyimizin və milli maraqlarımızın ətrafında daha sıx birləşərək, bu yolda heç bir təxribatçı fəaliyyətə, komanda oyununa xələl gətirmə istiqamətindəki əyintilərə imkan verməyəcəyik.

---

### AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN DEKABR AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 11 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 16 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 9 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 2 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 4 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 5 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 9 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 19 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 26 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 10 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 12 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 18 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 20 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 12 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 25 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 3 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 10 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 17 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 10 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 20 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 6 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18:00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.

Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

| | |
|---|---|
| **Telefonlar:** | (012) 510-99-38 |
| | (012) 510-89-14 |
| | (012) 492-74-05 |

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Sənaye öhdəlikləri: arxeologiya və mədəni irsə töhfə» mövzusunda beynəlxalq simpozium təşkil olunub

Noyabrın 28-də Daş Salnamə Muzeyində “Sənaye öhdəlikləri: arxeologiya və mədəni irsə töhfə” mövzusunda beynəlxalq simpozium təşkil olunub. AZƏRTAC xəbər verir ki, tədbir Heydər Əliyev Fondunun təşəbbüsü, “BP Azerbaijan”, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti və Avstriyanın “Atelier Erich Pummer” şirkətinin təşkilatçılığı ilə keçirilib.



Simpoziumun məqsədi müxtəlif müəssisə və təşkilatların mədəni irsin qorunması istiqamətində həyata keçirdikləri layihələrin ictimaiyyətə təqdim edilməsi, bu sahədə görülən işlərə dair təcrübə mübadiləsi, eyni zamanda, qazıntı işləri zamanı üzə çıxarılan arxeoloji tapıntıların daha dərindən öyrənilməsi və təbliğidir.

Heydər Əliyev Fondunun mədəniyyət və incəsənət məsələləri üzrə eksperti Emin Məmmədov çıxış edərək, fondun mədəni irsin qorunması istiqamətində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib. Qeyd olunub ki, mədəni irs və arxitektor abidələrin qorunması, eyni zamanda, arxeoloji araşdırmaların aparılması üzrə izlərə fond müntəzəm olaraq müvafiq dəstək göstərir.

Tədbirdə çıxış edən “BP Azerbaijan” şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli təmsil etdiyi qurum tərəfindən həyata keçirilən layihələrdən danışıb.

Bildirib ki, şirkətin daxilində mədəni irsin qorunması planı mövcuddur. Qeyd edib ki, “BP” şirkəti neft borularının quraşdırılması zamanı və digər tikinti işləri apararkən arxeoloji tapıntılarla üzləşir. Ümumilikdə 23 min artefakt aşkar olunub: “Bu, bizim tarixi irsimizdir, bir növ milli pasportumuzdur. İrsimizi gələcək nəsillərə ötürmək hamımızın borcudur. Çünki tarixi tapıntıların qiyməti xərclənən vəsaitdən daha vacibdir”.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov bildirib ki, İçəri şəhər dünya mədəniyyətinin ayrılmaz bir hissəsidir. Qeyd olunub ki, Azərbaycan mədəni irsinin qorunub saxlanılması və təbliği ölkə başçısının daim diqqət mərkəzindədir. Bununla bağlı İçəri şəhərdə ötən əsrin 60-cı illərindən başlayaraq irimiqyaslı qazıntı işləri aparılıb və üç mədəni təbəqənin mövcudluğu müəyyən edilib. Bildirib ki, 2016-cı ildə başlanan qazıntılar zamanı Qoşa Qala Qapısı yanında XVII əsrə aid və dövrümüzə dəyişilməz halda çatan hamam və Bakı xanlarının evi tapılıb. Qeyd edib ki, hazırda bu tikililərin restavrasiyası davam etdirilir və işlər başa çatdıqdan sonra ərazi abadlaşdırılaraq ziyarətçilərin ixtiyarına veriləcək.

“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov bildirib ki, təmsil etdiyi şirkət qiymətli və əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, qiymətli və nəcib metalların hasilatı, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

Qeyd edib ki, “AzerGold” QSC AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əməkdaşlıq edir: “Qazıntılar zamanı təqribən 6 min eksponat aşkarlanıb və Heydər Əliyev Fondunun dəstəyi ilə müvafiq razılaşmaya əsasən qəbirlərdən aşkarlanan sümük nümunələrinin izotop və radiokarbon analiz üçün xarici laboratoriyalara göndərilməsi ilə bağlı işlər görülür”.

Gürcüstan Milli Muzeyinin direktoru David Lordkipanidze konfransda iştirakından məmnunluğunu ifadə edib: “Heydər Əliyev Fondunun gördüyü işlər əvəzsizdir. Bizim muzeyin Azərbaycanla əməkdaşlıq etməsi əlbəttə ki, çox sevindiricidir. Əsas tərəfdaşımız “BP” şirkətidir, ancaq Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri olmasaydı, bizim onlarla əməkdaşlığımız mümkün olmazdı”.

Sonra konfrans işini plenar sessiyalarla davam etdirib. “Azərbaycanda ixrac boru kəmərlərinin marşrutu boyu arxeoloji abidələrin araşdırılması”, “Gürcüstan Milli Muzeyində həyata keçirilən layihələrin icmalı”, “Çovdar nekropolu”, “Ətraf arxeologiyasının xilas edilməsi və İçəri şəhərdə arxeoloji turizmin inkişaf etdirilməsinə dair tədqiqat” və digər mövzularda məruzələr dinlənilib.

Tədbir çərçivəsində, həmçinin qazıntılar zamanı aşkarlanmış maddi-mədəni irs nümunələrindən ibarət xüsusi ekspozisiyanın açılışı olub. Sərgi-ekspozisiya 6 ay müddətində Daş Salnamə Muzeyində nümayiş etdiriləcək.

## Azərbaycan və Türkmənistan arasında dövlətlərarası saziş imzalanıb





Noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində baş tutan “Türkmentel 2019” 12-ci Beynəlxalq Telekom və İT Sənayesi sərgisi çərçivəsində Azərbaycan və Türkmənistan arasında Xəzər dənizinin dibi ilə magistral kabel xəttinin çəkilməsi barədə dövlətlərarası saziş imzalanıb.

“Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili” haqqında dövlətlərarası saziş Azərbaycan tərəfdən Azərbaycan Respublikasının Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri Həsən Zeynalov tərəfindən, Türkmənistan tərəfdən isə bu ölkənin Sənaye və Kommunikasiyalar Nazirliyinin “Türkmenaraqatnaşık” (“Türkmenaragatnaşyk”) agentliyinin sədri Hacımurad Xudayquliyev tərəfindən imzalanıb.

Sazişə əsasən, Xəzər dənizinin dibi ilə çəkiləcək magistral fiber-optik kabel xətti Azərbaycan tərəfdən magistral internet provayderi “AzerTelecom” şirkəti, Türkmənistan tərəfdən isə bu ölkənin telekommunikasiya operatoru “Türkmentelekom” tərəfdən reallaşdırılacaq. Kabel xətti Siyəzən və Türkmənbaşı coğrafi məkanları arasında çəkiləcək.

“AzerTelecom” şirkəti tərəfindən belə bir magistral kabel xəttinin çəkilməsi Azərbaycandan keçəcək və Avropa ilə Asiyanı birləşdirəcək Rəqəmsal İpək yolunu formalaşdıracaq. Magistral xətt Avropa internet mərkəzlərindən internet trafikinin məhz Azərbaycan vasitəsilə Türkmənistana, daha sonra isə Özbəkistan, Əfqanıstan, Pakistan və Hindistana ötürülməsinə imkan verəcək. Belə bir magistral xətt Avropa ilə Cənubi Asiya arasında internet trafikinin ötürülməsində Azərbaycanı mərkəzi ölkəyə çevirəcək və rəqəmsal telekommunikasiya dəhlizini formalaşdıracaq. Kabel xətti hər iki ölkənin telekommunikasiya sektorunun inkişafına, eləcə də regional inkişafa töhfə verəcək.

“AzerTelecom” Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi istiqamətində icra etdiyi “Azerbaijan Digital Hub” proqramı çərçivəsində daxilində və ölkə xaricində iri infrastruktur quruculuğu layihələri icra edir. Ölkə xaricində infrastruktur quruculuğu Azərbaycan və Orta Asiya ölkələri arasında Xəzər dənizinin dibi ilə yüksək məlumat ötürmə imkanlarına malik magistral kabel xəttinin çəkilməsini nəzərdə tutur. Layihə iki istiqamətdən - Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutlarından ibarətdir. Artıq Azərbaycan və Qazaxıstan arasında uzunluğu 380-400 km olan Transxəzər fiber-optik kabel xəttinin (TransCaspian Fiber Optic - TCFO) çəkilməsi ilə bağlı operatorlar arasında müqavilə və iki ölkə arasında dövlətlərarası saziş mövcuddur.

“AzerTelecom” - Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan “Bakcell” şirkətinin törəmə müəssisəsidir. “AzerTelecom” şəxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

*“Azərbaycan”*

## 23 DEKABR BƏLƏDİYYƏ SEÇKİLƏRİ GÜNÜDÜR

# Əsas meyarlardan biri aşkarlığın təmin edilməsidir

Seçkilərin keçirilməsinin legitimliyi və demokratikliyinin qiymətləndirilməsinin əsas meyarlarından biri seçki prosesində aşkarlığın təmin edilməsidir. Buna görə də ölkəmizin seçki qanunvericiliyində aşkarlığın təmin olunmasının bir sıra institutları nəzərdə tutulub. Bunlara seçkilərin hazırlanmasını, keçirilməsini və yekun vurularaq nəticələrin elan olunmasını, seçkilərdə ciddi reqlamentin müəyyənləşdirilməsini nəzərdə tutan, ölkənin beynəlxalq öhdəliklərinə uyğun olaraq qəbul edilmiş qanunların və qanunuvericilik aktlarının, daimi əsaslarla peşəkar səviyyədə fəaliyyət göstərən seçki komissiyalarının mövcudluğu, onların fəaliyyətinin şəffaflığı, seçkilərə ictimai və beynəlxalq müşahidənin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılması və s. kimi hüquqi mexanizmlər aiddir.



Azərbaycan Respublikasının Seçki Məcəlləsində seçkilərin hazırlanması və keçirilməsi zamanı aşkarlıq mühüm prinsiplərdən biri kimi təsbit edilib. Seçkilərin şəffaflığına xidmət edən bu prinsipin təmin olunmasında aşkarlıq institutunun müxtəlif elementləri - yerli və beynəlxalq müşahidəçilərin, kütləvi informasiya vasitələrinin yaxından iştirakı, beynəlxalq metod kimi tətbiq olunan “exit-poll” keçirilməsi, seçki komissiyalarının şəffaf fəaliyyəti, eyni zamanda, qaynar xətt, internet resursları və son illər ölkəmizdə geniş tətbiq olunan veb-kameralar mühüm rol oynayır. Bütün bunlar seçki prosesini əvvəldən-axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və nəhayət, aşkarlığın daha dolğun təminatına şərait yaradır.

Öncə qeyd etmək lazımdır ki, seçki qanunu bəzi seçki subyektlərinə - seçki komissiyalarının üzvlərinə, müvafiq seçki dairəsi üzrə qeydə alınmış namizədlərə və onların səlahiyyətli nümayəndələrinə, yaxud onların, eləcə də siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxslərinə seçki komissiyasının iclaslarını, habelə səslərin hesablanmasını, məntəqə və dairə seçki komissiyalarında seçki bülletenləri, seçici siyahıları ilə, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri ilə, səsvermənin nəticələri və yekunları haqqında protokollarla müvafiq işin aparılmasını müşahidə etmək və onlarla tanış olmaq, dairə və məntəqə seçki komissiyalarının qərarlarının və digər seçki sənədlərinin (seçici siyahıları, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri, seçki bülletenləri və imza vərəqələri istisna olmaqla) surətlərini almaq, seçki komissiyalarında digər seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək hüququ verməklə seçki prosesində aşkarlığın və şəffaflığın təmin olunmasının əsasını qoyub. Həmin şəxslərin müvafiq seçki komissiyalarının iclaslarında iştirak etmək və adıçəkilən sənədlərlə tanış olmaq üçün seçki komissiyalarından əlavə icazə almaları və ya müşahidəçi qismində qeydiyyatdan keçmələri tələb olunmur. Müvafiq seçki komissiyası isə onların seçki sənədləri ilə iş aparılan və ya səslər hesablanan yerə sərbəst daxil olmasını təmin edir.

Seçki Məcəlləsi istər yerli, istərsə də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı və fəaliyyəti üçün geniş imkanlar açır. Qanunla müəyyənləşdirilmiş qaydada və müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələn beynəlxalq müşahidəçilər MSK-da qeydiyyatdan keçdikdən sonra fəaliyyət göstərə bilirlər. Qanunun tələbinə görə, Azərbaycan Respublikasının vətəndaşları beynəlxalq müşahidəçi statusu ala bilməzlər.

MSK-nın internet səhifəsində müşahidəçilərin qeydiyyatdan keçmələrinə metodiki köməklik göstərilməsi məqsədilə qanunvericiliklə nəzərdə tutulmuş və bir çox ölkələr üçün nümunə olacaq səviyyədə, sadə və işlək qaydalara uyğun ingilis və rus dillərində beynəlxalq, Azərbaycan dilində isə yerli müşahidəçilər üçün, hətta beynəlxalq müşahidəçiləri müşayiət edən tərcüməçilər üçün müvafiq ərizə formaları yerləşdirilib. Həmin formaları doldurub iki ədəd rəngli fotoşəkil əlavə etməklə qeydiyyat üçün müraciət etmək olar.

Qeydə alınmaq üçün müvafiq sənədləri təqdim edən beynəlxalq müşahidəçiyə MSK Azərbaycan dilində və xarici dillərin birində vəsiqə - lövhəcik verir. Yalnız belə lövhəciyin olması beynəlxalq müşahidəçiyə seçkilərin hazırlanması və keçirilməsi dövründə fəaliyyət göstərmək imkanı verir. Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti müvafiq qaydada qeydə alındığı gündən başlayır və seçkilərin yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün başa çatır. Azərbaycan Respublikasının qanunlarını, beynəlxalq hüquq normalarını pozduqları halda MSK onların qeydiyyatını ləğv edə bilər.

Beynəlxalq müşahidəçilər seçicilərlə, namizədlərlə, qeydə alınmış namizədlərlə, seçki komissiyalarının üzvləri ilə, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri ilə, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri ilə görüşə, səsvermə günündən sonra seçki qanunvericiliyi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar mətbuat konfransı keçirə və kütləvi informasiya vasitələrinə müraciət edə bilərlər.

Onlar seçki kampaniyasının gedişi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar olmayan fəaliyyətlə məşğul olmaq üçün öz statusundan istifadə edə bilməzlər.

Seçki prosesinin yerli müşahidəsi bir qayda olaraq müşahidəçinin öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında aparılır. Belə müşahidələr iki formada: respublikanın bütün ərazisində və müvafiq seçki dairəsinin ərazisində aparıla bilər. Azərbaycanın bütün ərazisində müşahidənin aparılmasına dair ərizə seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək MSK-ya təqdim edilə bilər. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, zərurət olduqda isə həm də maraqları təmsil olunacaq namizədin adı, qeyri-hökumət təşkilatının, siyasi partiyanın, siyasi partiyalar blokunun adı və hüquqi ünvanı göstərilməlidir. Ərizəyə iki fotoşəkil də əlavə olunmalıdır. Hər bir ərizəyə dair qərar isə onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilir. Ərizəçinin müşahidəçi qismində qeydiyyatından imtina olunması halı yalnız ərizədə göstərilən məlumatlar yanlış olduqda baş verə bilər. Müşahidənin aparılmasına icazə verildikdə müşahidəçiyə MSK-nın müəyyən etdiyi formada lövhəcik verilir.

Seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə isə seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilməlidir. Bu ərizədə də yuxarıda qeyd edilən məlumatlar göstərilməli və ərizəyə iki fotoşəkil əlavə olunmalıdır. Müşahidənin aparılmasına icazə verildikdə dairə seçki komissiyası müşahidəçiyə MSK-nın müəyyən etdiyi formada lövhəcik verir.

Həm yerli, həm də beynəlxalq müşahidəçilər eyni hüquq və vəzifələrə malikdirlər. Onların seçici siyahıları ilə tanış olmaq, səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsində olmaq, seçki bülletenlərinin verilməsini, səsvermə yerindən kənarda seçicilərin səs verməsini, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək kimi hüquqları var. Bundan əlavə, onlar seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxa, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış ola, səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət edə bilər. Müşahidəçilərin, həmçinin səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların surətini əldə etmək hüququ var.

Qanunla seçki prosesində aparılan müşahidənin tam, hərtərəfli, keyfiyyətli, obyektiv və ən önəmlisi, qərəzsiz aparılması üçün bir sıra prinsiplər də müəyyən edilmişdir: seçki prosesində bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməli, müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalı, müşahidə açıq aparılmalı və müşahidənin yekunları faktlara əsaslanmalıdır. Göründüyü kimi, bu prinsiplər seçki prosesinin müşahidəsinin səmərəliliyini artırmağa və seçki praktikasının daha da təkmilləşdirilməsinə xidmət edir. Həm yerli, həm də beynəlxalq müşahidəçilər bütün fəaliyyətləri zamanı qərəzsiz və bitərəf olmalıdırlar.

Seçki Məcəlləsində müşahidəçilərin fəaliyyəti ilə bağlı bir sıra qadağalar da müəyyən edilib. Belə ki, seçicilərə seçki bülletenləri vermək, seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək, seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması haqqında imza etmək və bülleteni doldurmaq, seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək, seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək, seçicilər arasında təşviqat aparmaq, hər hansı bir namizədin, siyasi partiyanın, siyasi partiya bloklarının dəstəklənməsinə yönəldilən və ya bu cür qiymətləndirilə bilən çağırışlar etmək, seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək və öz statusu ilə bağlı suallar istisna olmaqla, seçicilərin suallarına cavab vermək müşahidəçilərə qadağan edilir. Bu tələblərin əksinə hərəkət edən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə orqanı tərəfindən ləğv oluna bilər.

Hal-hazırda qarşıdakı bələdiyyə seçkiləri ilə əlaqədar olaraq yerli və beynəlxalq müşahidəçilər, xarici və yerli kütləvi informasiya vasitələrinin nümayəndələri üçün seçki prosesini əvvəldən axıradək azad və sərbəst müşahidə etməyə həm qanunvericilik, həm də təşkilati baxımdan hər cür şərait mövcuddur. Bütün seçki subyektləri, eləcə də bütün müşahidəçilər üçün Azərbaycan, ingilis və rus dillərində müxtəlif maarifləndirmə materialları - “Seçki günü üçün yaddaş”, “Müşahidəçilər üçün yaddaş” kitabçaları və s. hazırlanaraq həm MSK-nın rəsmi internet səhifəsində yerləşdirilib, həm də aidiyyəti üzrə çatdırılmaq üçün seçki subyektlərinə paylanılıb.

Azərbaycanda keçirilən seçkiləri xarakterizə edən mühüm cəhətlərdən biri də seçki prosesində çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, eləcə də yerli və beynəlxalq kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakıdır. Bu isə Azərbaycan dövlətinin seçkilərin təşkili və keçirilməsi sahəsində milli qanunvericiliyə, eləcə də beynəlxalq hüquq normalarına uyğun olaraq üzərinə götürdüyü öhdəliklərə sözsüz və dönmədən əməl etməsinin bariz göstəricisidir.

Respublikada keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunmasını özünün əsas vəzifələrindən biri hesab edən MSK bu məqsədlə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da geniş istifadə edir. Məsələn, respublikamızın seçki tarixində on ildən artıq müddətdə tətbiq olunan və səsvermə prosesini seçki məntəqələrindən kənarda internet vasitəsilə fasiləsiz olaraq canlı izləməyə imkan verən veb-kameralardan istifadə təcrübəsini qeyd etmək yerinə düşər. Keçirilən seçki və referendumlar zamanı respublikadakı seçki məntəqələrində veb-kameralar quraşdırılmasına dair məsələyə MSK-nın iclasında baxılaraq müvafiq qərarla veb-kameralar quraşdırılan 1000 (təxminən 20%) məntəqənin siyahısı təsdiq olunur. Kameralar səsvermə günü seçki məntəqələrinin açılması anından, səsvermənin yekunlarının müəyyənləşdirilməsi və səsvermənin nəticələri haqqında protokolun doldurulmasından sonra seçki məntəqələrinin bağlanması anınadək fasiləsiz olaraq fəaliyyət göstərir.

Veb-kameralarla bağlı texniki hazırlıq işləri və onların sınaqdan keçirilməsi sahəsində MSK Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə sıx əməkdaşlıq edir. Qeyd edək ki, bu veb-kameralar vasitəsilə internet istifadəçiləri istər ölkə daxilindən, istərsə xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini, səslərin sayılmasını, nəticələrin müəyyənləşdirilməsini və nəticələr haqqında rəsmi protokolların hazırlanmasını arasıkəsilmədən canlı müşahidə etmək imkanı əldə edir. Bu təcrübə 2008-ci ildən etibarən respublikada keçirilən bütün seçki və referendumlarda uğurla tətbiq olunur. Yeri gəlmişkən, qarşıdan gələn bələdiyyə seçkilərində də bu ənənənin davam etdirilməsi nəzərdə tutulur. Bu isə seçki prosesində şəffaflığın təmin olunmasında iştirak edən çoxsaylı aşkarlıq institutları ilə bərabər, ölkə əhalisinin təqribən 80 faizindən çoxunu təşkil edən internet istifadəçiləri tərəfindən seçki günü proseslərinin birbaşa izlənməsinə və beləliklə, bu prosesdə aşkarlığın və şəffaflığın daha yüksək səviyyədə təmin olunmasına şərait yaradacaq. Qeyd edək ki, dünya seçki praktikasında yeni bir səhifə açan bu təcrübədən artıq bir sıra ölkələr də istifadə etməyə başlayıb.

Seçkilərdə iştirak edən tərəflərin etibarlı məlumat əldə edə bildikləri qaynaqlardan biri də MSK-nın seçkilərlə bağlı 115 nömrəli qaynar xəttidir. Avtomatlaşdırılmış telefon və elektron qaynar xətlərə daxil olan müxtəlif mövzularla bağlı sorğular, eləcə də digər hüquqi məsələlər dərhal cavablandırılır və operativ şəkildə müvafiq addımlar atılır.

Ölkəmizdə keçirilən seçkilər zamanı seçki günü ərzində MSK-ya ötürülən məlumatlar müxtəlif vasitələrlə birbaşa yayılır. Seçki prosesinin digər mərhələlərində olduğu kimi, seçkilər başa çatdıqdan və səsvermə məntəqələri bağlandıqdan sonra maraqlı şəxslərin maneəsiz şəkildə məlumat alması məqsədilə ölkə üzrə bütün seçki məntəqələrindən səsvermənin yekunlarına dair daxil olan ilkin məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin xüsusi proqram təminatı vasitəsilə birbaşa MSK-nın internet səhifəsinə ötürülərək oradan bütün yerli və beynəlxalq ictimaiyyətin diqqətinə təqdim olunur.

Seçki prosesində seçki subyektlərinin maarifləndirilməsində və şəffaflığın təmin olunmasında digər mühüm bir vasitə isə Mərkəzi Seçki Komissiyasının internet səhifəsidir (www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az) ki, burada əvvəlki seçkilərlə, o cümlədən bələdiyyə seçkiləri ilə bağlı bütün məlumatlar yerləşdirilib. Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, MSK tərəfindən qəbul edilmiş bütün təlimat, qayda, izah və qərarlar ən son redaksiyada Azərbaycan və ingilis dillərində həmin internet səhifəsində mövcuddur. Bələdiyyələrə cari ildə keçiriləcək seçkilərlə əlaqədar MSK-nın qərarları, keçirdiyi çoxsaylı maarifləndirmə tədbirləri haqqında və digər məlumatlar dərhal Azərbaycan və ingilis dillərində internet səhifəsində yerləşdirilir. Bundan başqa, seçki dairə və məntəqələrinin dislokasiyası, seçicilərin axtarış sistemi, əvvəlki seçkilərlə bağlı məlumatlar, seçki komissiyalarının tərkibi, ünvanı (naviqasiyalı bələdçi vasitəsilə səs veriləcək seçki məntəqəsinin tapılması), əlaqə məlumatları, seçki məntəqələrinin ünvanı və xəritəsi, seçicilərin siyahısı, seçkiqabağı təşviqatla əlaqədar məlumatlar, mətbuat bülletenləri və ictimaiyyət üçün maraq kəsb edən digər informasiyalar internet səhifəsində real vaxt rejimində vətəndaşların istifadəsinə verilib. Komissiyanın sosial şəbəkələrdəki səhifəsi də istifadəçilərin ixtiyarındadır və məlumatlar mütəmadi olaraq bu səhifələrdə də yerləşdirilir.

Seçkilərdə kompüter texnologiyasından və telekommunikasiyadan istifadə onların seçki prosesində tətbiqinin yüksək səmərəliliyini inandırıcı şəkildə sübut etdi. MSK-nın təşəbbüsü ilə yaradılmış “Seçkilər” Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin tətbiqi Azərbaycan vətəndaşları üçün səsvermə və referendumda iştirak hüququnun təminatlarından biridir. Belə ki, sistem məlumatların düzgünlüyünü və dolğunluğunu təmin edir, vətəndaşları seçkilərin gedişi və nəticələri barədə mümkün qədər tez və geniş məlumatlandırır və bütün səviyyələrdən olan seçki komissiyalarının fəaliyyətinin informasiya təminatının səmərəliliyini artırır ki, bununla da seçki prosesində aşkarlığın təmin olunmasında önəmli rol oynayır.

Seçki prosesinin şəffaflığının və aşkarlığının təmin edilməsinin əsas vəzifəsi ədalətli və azad seçkilərin keçirilməsinə elə şərait yaratmaqdan ibarətdir ki, vətəndaş namizədliyini azad şəkildə irəli sürmək, səsvermənin gizliliyinə riayət edilməklə dəstəklədiyi namizədin lehinə səs vermək və iştirak etdiyi seçkinin nəticələrini vaxtında almaq imkanına malik olsun.

Bir daha qeyd etmək istərdik ki, aşkarlıq seçki prosesi üçün son dərəcə vacibdir, çünki mümkün səhv və nöqsanları aradan qaldırmağa, qanun pozuntusu ehtimalını məhdudlaşdırmağa imkan verir, vətəndaşların seçki sisteminə inamını gücləndirir.

Beləliklə, seçkilərdə aşkarlığın və şəffaflığın təmin olunmasına ciddi hüquqi əsas yaradan milli qanunvericilik sisteminin və seçki praktikasında mühüm aşkarlıq institutlarının mövcudluğu, seçki komissiyaları sisteminin daimi əsaslarla peşəkar fəaliyyəti, MSK-nın həyata keçirdiyi çoxsaylı maarifləndirmə tədbirləri qarşıdakı bələdiyyə seçkilərinin tam aşkarlıq və şəffaflıq şəraitində, azad və ədalətli keçiriləcəyinə inam yaradır.

***Bəxşeyiş ƏSGƏROV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***



# SUMQAYIT TƏXRİBATI
## – erməni millətçilərinin çirkin əməli



*Əvvəli 1-ci səh.*

Erməni ideoloqları öz havadarlarının pulu hesabına xaricdə kütləvi informasiya vasitələrində Azərbaycan haqqında mənfi imic yaratmaqla məşğul idilər. Məsələn, 1989-cu il iyun ayının 29-da "Yurmala" qəzetinin 26-cı sayının birinci səhifəsində belə bir başlıq verilmişdi: "Qəzetin bu nömrəsi Ermənistana və erməni xalqına həsr olunur".

Qəzetlə tanış olanlar bilirlər ki, Azərbaycanın, onun dinc əhalisinin ünvanına nə qədər böhtanlar yağdırılmışdır. Dağlıq Qarabağın guya tarixən ermənilərin olmasını sübut etməyə çalışır, Sumqayıtda ermənilərə qarşı "genosid" aparıldığını söyləyirdilər. Silva Kaputikyan məqaləsində yazırdı: "Biz uçuruma yuvarlanmışıq. Çıxış yolu yoxdur. Bir tərəfdə Türkiyə, digər tərəfdə Azərbaycan. Havamız çatmır. Məhv oluruq. Sumqayıtda qırğın olmuşdur. Bizi yaşamağa qoymurlar".

# Erməni təxribatının «Sumqayıt ssenarisi»

**(Əvvəli qəzetin 26 , 27, 28 noyabr nömrələrində)**

Qərb ölkələri, transmilli korporasiyalar, xarici mətbuat Azərbaycanda gedən ictimai-siyasi proseslərdən, Sumqayıtda baş verən qanlı aksiyadan, Dağlıq Qarabağ problemindən SSRİ-nin dağıdılmasında və kommunist partiyasının ləğvində bir alət kimi istifadə etdilər. Erməni millətçiləri isə bu hadisələrdən tarixi şans kimi istifadə etməyə çalışırdılar. Həmin illər ermənilər informasiya müharibəsində üstünlük qazanmışdılar. Fransada, Kaliforniyada, Hollandiyada kütləvi informasiya vasitələrində ermənilər və ermənipərəst siyasətçilər, politoloqlar Azərbaycanın ünvanına hədyanlar yağdırırdılar.

Sumqayıtda qanlı terror fevralın 27-də baş tutsa da, bu ssenari çoxdan hazırlanmışdı. Ssenari çox məxfi şəkildə hazırlandığından iğtişaşlar başlanandan sonra da həqiqət dünyadan, cinayətkarlar isə istintaqdan gizlədildi. Hadisələrin xronikası, ardıcıllığı sübut edir ki, erməni millətçi və separatçı qüvvələri bu qanlı terrorun məxfi planını, parol və işarələrini çoxdan hazırlamışdı. Bir-birinin ardınca təşkil olunan aksiyalar, siyasi gedişlər də bunu sübut edir. Eyni vaxtda Xankəndidə və Yerevanda Qarabağ uğrunda mitinqlər təşkil olunur, yığıncaqlar keçirilirdi. Ermənistanda yaşayan azərbaycanlılar mütəşəkkilliklə ata-baba yurdlarından zorla qovulurdular. İlk qaçqınlar Bakıya, Sumqayıta gəlirdi. Əlbəttə, bu gəlişin ardınca cavab aksiyaları təşkil olunurdu. Nümayişçilər, yürüşçülər arasında Azərbaycan dilində sərbəst danışan saqqallı erməni emissarları görünürdü. Erməni separatçıları məqsədlərinə çatmaq üçün hər cür hiyləyə əl atır, dəridən-qabıqdan çıxırdılar. Elə bir məqam yaranmışdı ki, Moskva hadisələri sükutla izləyir, əslində isə daha riyakar və dəhşətli planların konturları cızılırdı.

Statistik məlumatlara görə, hələ 1988-ci ilin əvvəllərində Sumqayıtda müxtəlif millətlərdən olan 258 min 200 nəfər yaşayırdı. Onların 14.208 nəfəri milliyyətcə erməni idi. Doğrudur, həmin illərdə Gəncədə, Şəkidə, Bakıda da ermənilərin sayı az deyildi. Amma iğtişaş üçün məhz Sumqayıtın seçilməsinin səbəbləri vardı. Birincisi, Sumqayıt Bakıya daha yaxın idi. Bakıdan dünya ictimaiyyətinə hadisə barədə məlumat yaymaq, antiazərbaycançı şəbəkə ilə çevik əlaqə yaratmaq imkanları geniş idi. İkincisi, 80-dən çox millətin yaşadığı Sumqayıt təkcə kimyaçılar, metallurqlar şəhəri kimi yox, həm də xalqların dostluq şəhəri kimi tanınırdı. Maraqlı olan qüvvələr bu hadisələri törətməklə dünya ictimaiyyətinə bəyan etmək istəyirdilər ki, guya azərbaycanlılar millətçi, vəhşi və barbar bir xalqdır. Bu səbəbdən də onlarla birgə yaşamaq mümkün deyil. Sumqayıtda törədilən qanlı aksiyaların şəhərin Dostluq, Sülh küçələrində baş tutması da məqsədli idi.

### Fransız jurnalisti Jan-İv: "Ermənilər 5-6 yaşlı uşaqları, dinc əhalini vəhşicəsinə öldürürlər"

Sumqayıtda hadisələrin başladığı gündən dərhal anti-Azərbaycan informasiya şəbəkəsi işə düşdü. Müxtəlif ölkələrdə videolentlər nümayiş etdirildi, mətbuatda şər və böhtan dolu yazılar dərc olundu. Qəribədir ki, cəmi 3-4 gün sonra Xankəndidə əvvəlcədən hazırlanmış "Sumqayıt hadisələri" zamanı həlak olmuş ermənilərə xatirə abidəsi ucaldıldı, "Sumqayıt... soyqırımı... aşkarlıq" adlanan kitabça 50 min tirajla Yerevanda rus dilində çap olunub dünya ictimaiyyətinə çatdırıldı. Əlbəttə, belə silsilə tədbirlər bir daha sübut etdi ki, ermənilər bu qanlı aksiyanın törədilməsini və geniş yayılmasını planlı şəkildə təşkil etmişlər. "Böyük Ermənistan" xülyasına xidmət edən antitürk, anti-Azərbaycan təbliğat separatçıların başlıca məqsədinə, məramına çevrilmişdi. Sumqayıt hadisələri barədə sovet və xarici ölkə mətbuatında birtərəfli, qərəzli yazılar dərc olunurdu. Moskva isə susurdu. Hələ 1988-ci il fevralın 26-da ittifaq rəhbəri M.Qorbaçov ermənilərin ona müraciətinə çox təmkinlə cavab vermişdi: "Mən hər şeyi başa düşdüm, ancaq bir az gözləyin". Cəmi iki gün sonra Sumqayıt hadisələri baş verdi.

1988-ci il fevral hadisələrindən sonra M.Qorbaçov yüksək dairələrdə Sumqayıt faciəsinə siyasi qiymət verilməsinin qarşısını aldı. Çünki o vaxtlar Sumqayıt hadisələrinə siyasi qiymət verilsəydi, həmin əməliyyatın yüksək dairələrdən idarə olunması faktı ortaya çıxa bilərdi. SSRİ-nin milli münaqişələr zəminində dağıdılması ssenarisinin əsl müəllifləri ittiham olunardı, Sumqayıtda törədilmiş iğtişaşların Dağlıq Qarabağ problemi ilə bağlılığı üzə çıxardı. Bununla da ermənilərin dünyaya bəlli olan iç üzləri açılardı. Hələ bir vaxtlar ermənilərin vəhşiliyindən dəhşətə gələn fransız jurnalisti Jan-İv yazırdı: "Mən müharibədə çox şeylər olduğunu, alman əsgərlərinin qəddarlığını eşitmişəm. Amma ermənilər onları ötüb-keçiblər. Onlar 5-6 yaşlı uşaqları, dinc əhalini vəhşicəsinə öldürürlər".

### İğtişaşları erməni millətçiləri və onların havadarları törədib

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Baş Prokurorluğun 1988-ci il Sumqayıt iğtişaşları ilə əlaqədar birgə bəyanatında deyilir: "Həmin təxribatın törədilməsində SSRİ DTK-nın məqsədi SSRİ-nin əyalətlərində vəziyyəti gərginləşdirərək güclənən mərkəzdənqaçma meyillərini dayandırmaq, sərt repressiya metodlarına əl atmağa bəraət qazandırmaq və güclü mərkəzi sovet hakimiyyəti olmadan sovet respublikalarının müstəqil yaşaya bilməyəcəklərini nümayiş etdirmək olmuşdur. Sumqayıt hadisələrinə bənzər iğtişaş və təxribatlar DTK tərəfindən Oş (Qırğızıstan), Fərqanə (Özbəkistan), Tbilisi (Gürcüstan), Vilnüs (Litva) və digər ərazilərdə təşkil olunmuşdu.

Hadisələr ərəfəsində və hadisələr baş verən gün Sumqayıt şəhərində və ətrafında SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və ordu birləşmələrinin kifayət qədər canlı qüvvəsi və texnikası olsa da, onlar tərəfindən vəziyyətin nəzarət altına alınması üçün vaxtında qabaqlayıcı tədbirlər görülməmişdi.

Evlərə basqın və digər zorakılıq hərəkətləri əvvəlcədən hazırlanmış siyahı və xüsusi plan əsasında əslən erməni olan Sumqayıt şəhər sakini, dəfələrlə məhkum olunmuş Eduard Qriqoryanın bilavasitə rəhbərliyi və göstərişləri üzrə həyata keçirilmiş, hücumlara məruz qalan ermənilər isə Dağlıq Qarabağın Azərbaycandan ayrılması məqsədini güdən gizli "Krunk" və "Karabakh" komitələrinə ianə verməkdən imtina edən şəxslər olmuşlar.

İğtişaşlarda E.Qriqoryan ermənilərə qarşı xüsusi qəddarlığı ilə seçilmiş, zorlamaya məruz qoyduğu erməni Mejlumyan bacıları tərəfindən istintaq zamanı qəti olaraq tanınmışdır. Məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilən E.Qriqoryan SSRİ dağılandan sonra Ermənistanın həbsxanasına köçürülmüş və oradan da dərhal müəmmalı şəkildə azadlığa buraxılmışdı. Hazırda istintaqı aparılan cinayət işi üzrə ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, qrup halında zorlama və digər ağır cinayətləri törətməkdə təqsirləndirilən, barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilmiş E.Qriqoryanın faktiki yaşadığı ünvanın operativ kanallarla müəyyən olunmasına və ictimaiyyətə bu barədə məlumat verilməsinə baxmayaraq, o, Ermənistanın xüsusi xidmət orqanlarının himayəsi altında üçüncü ölkənin ərazisində azadlıqda yaşamaqda davam edir.

Cinayət işinin materialları bir daha göstərir ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat planına uyğun olaraq daha geniş miqyas alardı. Milliyyətcə erməni olan şahidlərin ifadələrindən göründüyü kimi, onlarla erməni hadisələr vaxtı azərbaycanlı ailələr tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilmişdi.

SSRİ dövründə foto-video çəkilişə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, hadisələrin əvvəlcədən quraşdırılmış vasitələrlə foto-videoçəkilişi aparılmış və dərhal SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi yayılmışdı.

Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilmişdir".

Sumqayıt hadisələrinin ermənilərin maraqlarına xidmət edən təxribat olduğu faktlarla sübut olunub. Bu, əvvəlcədən düşünülmüş və həyata keçirilmiş bir aksiya idi. Ermənilər bu qanlı əməllərindən mənafeləri üçün istifadə etməyə, beynəlxalq miqyasda xalqımız haqqında mənfi rəy formalaşdırmağa cəhd göstərsələr də, zaman hər şeyi yerbəyer edərək kimin haqlı, kimin haqsız olduğunu sübuta yetirdi.

***"Azərbaycan"***

# Paşinyan ölkəsini səfalətə sürükləyir

*Əvvəli 1-ci səh.*

Məlumatı Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyan da təsdiqləyib. Əsgərin intihar etdiyi ehtimal olunur. Hadisə ilə bağlı cinayət işi başlanılıb.

Ordunun hərbi qulluqçularının nizam-intizamı, mənəvi-psixoloji, maddi və fiziki vəziyyətinin ötən illərə nisbətən daha da pisləşdiyini etiraf edən ermənilərin sayı davamlı surətdə artır. Döyüş itkilərindən əlavə, Ermənistan ordusunda baş verən fərarilik, ölüm, zorlama, döyülmə, rüşvət, korrupsiya, intihar, təcavüz və digər nizamnamədənkənar halların sayı dəfələrlə çoxalıb. Əvvəlki kimi, regionçuluq xəstəliyi bu silahlı qüvvələrin durumunu daha da pisləşdirir. Komandirlər tərəfindən hərbi hissələrdən hərbi qulluqçuları qeyri-qanuni yolla müəyyən olunmuş pul müqabilində ay ərzində hərbi hissədən kənara buraxma halları davam etməkdədir.

Qeyd olunur ki, Nikol Paşinyan, sələfi Sarkisyan kimi, xalqa yalan danışmaqdan çəkinmir. Baş nazirin xalqı aldatmağa yönələn açıqlamalarını, yalan danışdığını "Qraparak" qəzeti xüsusi vurğulayır. Nəşr yazır ki, Ermənistanda kasıbların gündəlik maddi ehtiyaclarını ödəməsi üçün zibil qutularına üz tutması adi hala çevrilib. Ermənistanda belə insanlarla gündə bir neçə dəfə qarşılaşmaq mümkündür.

"Qraparak"a danışan yaşlı erməni qadın da Ermənistandakı ağır sosial həyatdan bəhs edib. Zibil qutularında satmaq üçün şüşə və müxtəlif əşyalar axtardığını bildirən qadın tək olmadığını və övladının bir ailəsini də güclə dolandırdığını qeyd edib. Qadın daha ətraflı müsahibə verməkdən imtina etsə də, hakimiyyətin hər şeyi daha yaxşı bildiyini söyləyib. O, insanların bu vəziyyətə düşməsində Ermənistan rəhbərliyinin günahkar olduğunu deyib.

Göründüyü kimi, Paşinyan hakimiyyəti dövründə Ermənistanda heç bir irəliləyiş əldə olunmayıb. Elə bu səbəbdən də baş nazirin reytinqi əhali arasında sürətlə düşməkdədir. "Lragir" qəzetinin sosial şəbəkədəki səhifəsində paylaşılan məqalədə deyilir ki, Ermənistan ətrafında vəziyyət bu gün heç vaxt olmadığı qədər gərgin və təhlükəlidir: "Bu gün bizdə qanuni hökumət yoxdur. Buna görə də bizim gələcəyimiz çox qeyri-müəyyən və təhlükəlidir. Ölkədə rus və Qərbmeyilli qüvvələr arasında çox ciddi toqquşma var. Bunun əsas səbəbi ondan ibarətdir ki, ölkə rəhbərliyi daxili və xarici proseslər üzərində nəzarəti tamamilə itirib. Bizim daxili həyatımıza qarışan xarici ölkələrin sayı artır. Ermənistanın daxili siyasi həyatının zirvəsində oturan insanlar çıxış yollarını görə bilmirlər. Əgər belə davam edəcəksə, gələcəyimiz çox təhlükəlidir".

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Abdinli, Şirvanlı, Mərzili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

29 noyabr Ümumdünya Təbiəti Mühafizə Cəmiyyətinin yaranması günüdür

# Təbiətə sevgi insanların müqəddəs borcudur

Ümumdünya Təbiəti Mühafizə Cəmiyyəti 1948-ci ildən başlayaraq dünyanın əksər ölkələrində qeyd edilir. Cəmiyyət özündə 82 dövləti, 111 dövlət qurumunu, 800-dən artıq qeyri-hökumət təşkilatını və dünyanın 181 ölkəsindən olan çoxminli alim və eksperti özündə birləşdirir. 1972-ci ildə BMT Baş Məclisinin qətnaməsi əsasında yaradılan Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının (UNEP) məqsədi indiki və gələcək nəsillər üçün ətraf mühiti və təbiəti qorumaq, bu istiqamətdə tədbirləri əlaqələndirməkdir. Müxtəlif ölkələrdə altı böyük regional ofisi fəaliyyət göstərən UNEP Qlobal Ekoloji Fondun həmtəsisçilərindəndir və onun himayəsi altında da hər il dünyada Beynəlxalq Ətraf Mühit Günü qeyd edilir.



Ümummilli Lider Heydər Əliyev demişdir: "Kim hansı bir sağlam ağacı kəsirsə, hesab edirəm ki, o, mənim qolumu, barmaqlarımı kəsir. Bundan artıq cinayət olmaz. İnsan qurmalıdır, yaratmalıdır. Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir; o öz ailəsinə, özü özünə xəyanət edir... Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir".

Əfsuslar olsun ki, bəşəriyyətin inkişafının bütün dövrlərində təbiətə, onun sərvətlərinə, ətraf mühitə dağıdıcı, məhvedici münasibət göstərilmiş, təbii sərvətlər yerlə yeksan edilmiş, onlardan qeyri-səmərəli istifadə olunmuşdur. XX-XXI əsrlərdə elm və texnologiyaların həddən artıq çox böyük sürətlə inkişaf etməsi də, öz növbəsində, insanın təbiətə olan münasibətini dəyişdirdi. Belə ki, təbii resurslardan səmərəli istifadə etmək üçün bu gün insanlar elmin bir sıra nailiyyətlərini istiqamətləndirirlər. Təbiətdən istifadədə ekologiyaya az zərər verən yeni texnologiyaların yaranmasına diqqət artırılır. Lakin təəssüflər olsun ki, inkişafda olan və inkişafa qədəm qoyan ölkələrdə təbiətə qayğı və münasibət inkişaf edən ölkələrlə bir çərçivəyə sığmır. Təbiətə olan münasibəti köklü olaraq dəyişmək, təbii resursların istismarına ehtiyatla yanaşmaq, təbiətlə insanın münasibətinə yenidən baxıb fərqli tərzdə diqqət və təxirəsalınmaz tədbirlərin həyata keçməsini təmin etmək hökmən nəzərdə tutulmalıdır.

İqlim dəyişikliyi, ozon qatı, ümumiyyətlə, təbii və texnogen problemlər, onların törətdiyi fəsadlar haqqında dünyada gedən qızğın müzakirələr, planetimizin gələcəyinin qeyri-müəyyənliyi insanları həmişə düşündürür. Əgər təbiətə bu cür münasibət davam etdirilərsə, yaxın bir neçə onillikdən sonra insanları fəlakət gözləyir.

İnsan fəaliyyəti nəticəsində və onların təbiətlə qarşılıqlı əlaqəsi bu gün dünya əhalisinin əksəriyyətinin həyat şəraitinin dəyişməsinə səbəb olur. Bütün bu fəaliyyətlərin nəticələri aşağıdakı kimi təzahür edir.

Meşələr məhv edilir, süni göllər və su tutarlar yaradılır, bir çox səbəblərdən Yer səthinin landşaftı dəyişir. Meşələrin, xüsusən tropik meşələrin sahəsi ildə 200 min hektar azalır, səhraların sahəsi isə ildə 60 min kvadratkilometr artır. Hazırda təbii ekosistemlərin yalnız 40 faizə qədəri pozulmayan qalmışdır. Bu ilin ilk yeddi ayında Braziliyada baş verən yanğınlar 1.8 milyon hektardan çox Amazon meşəsini məhv edib ki, bu da dünyada biominin təxminən 0,44 faizini təşkil edir. Atmosferdə parnik (istilik) effekti yaradan toz və qazların toplanması nəticəsində Yerin istilik balansı dəyişir, qlobal istiləşmə baş verir. Karbon dioksid qazının ($CO_2$) qlobal emissiyası 1990-cı ildən bəri, təxminən, 50 faiz artmışdır. 1880-ci ildən 2012-ci ilədək dünyada orta temperatur 0,85°C artıb. İqlim dəyişikliyinin mənfi təsirləri dünyanın bütün ölkələrini əhatə edir və bu ölkələrin iqtisadiyyatına zərbə vurur, insanların həyatına mənfi təsir edir.

Okeanlarda istiləşmə, Yer səthində mövcud olan qar və buzlaqlar sahəsinin azalması nəticəsində dünyada mövcud olan dənizlərin bir qisminin səviyyəsi yüksəlmişdir. 1901-ci ildən 2010-cu ilədək buzlaqların əriməsi, dünyada baş verən istiləşmə nəticəsində okeanların sahəsi genişlənmiş, orta dəniz səviyyəsi 19 santimetrədək artmışdır. Şimal Buzlu okeanında buz səthi buzların əriməsi səbəbilə 1979-cu ildən etibarən hər onillikdə 1.07 milyon $km^2$ kiçilmişdir. Bu əsrin sonunadək qlobal temperaturun artımı 1850-1900-cü illərlə müqayisədə 1.5°C-ni ötə bilər. Dünya okeanlarının temperaturu yüksələcək və bunun nəticəsində buzların əriməsi davam edəcək. Orta dəniz səviyyəsinin 2065-ci ilə qədər 24-30 sm, 2100-cü ilədək isə 40-63 sm artacağı proqnozlaşdırılır. İqlim dəyişikliyi hətta qaz emissiyaları dayandırılsa belə, əsrlər boyu davam edəcəkdir.

İqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün dünya ölkələri 2015-ci il dekabrın 12-də Parisdə keçirdikləri XXI Konfransda Paris sazişini qəbul etmişlər. Saziş qısa müddətdən sonra - 2016-cı ilin noyabrında qüvvəyə minmişdir. Müqavilədə bütün ölkələr qlobal temperaturun artım səviyyəsinin $2^0$C-ni keçməməsini təmin etmək və ciddi riskləri nəzərə alaraq, bu göstəricinin $1.5^0$C-dən aşağı olması üçün tədbirlər görmək barədə razılığa gəlmişlər. Paris sazişinin həyata keçirilməsi dayanıqlı inkişafa nail olmaq üçün mühüm əhəmiyyət kəsb edir və emissiyaların azaldılmasına və iqlimin davamlılığının artırılmasına imkan verə biləcək iqlim tədbirləri üçün yol xəritəsi kimi çıxış edir.

Dünyada torpaqlardan səmərəsiz istifadə edilməsi nəticəsində onun şorlaşması, eroziyaya uğraması, münbitliyin aşağı düşməsi baş verir. Torpağa, suya, havaya zəhərli maddələr daxil olur. Okean sularının səviyyəsi ildə 2 millimetrdən 1 santimetrədək qalxır. Texnogen qəzalar və təbii fəlakətlərin sayı, onların təsiri nəticəsində ziyanlar çoxalır, ölənlərin sayı ildə 5-10 faiz artır.

Bu amilləri nəzərə alan Prezident İlham Əliyev deyib: "...Əsrlər boyu, minilliklər boyu təbiət olub, Kainat olub, dünya olubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq".

Ölkəmizdə təbiətin mühafizəsi işləri müvafiq dövlət orqanları, qoruqları, meşəçilik idarələri, ovçuluq təsərrüfatları və başqa müəssisələr tərəfindən həyata keçirilir. Təbitin mühafizəsi torpağın, su ehtiyatlarının qorunması, havanın sənaye tullantıları və zəhərləyici kimyəvi maddələrlə çirklənməsinin qarşısının alınması, meşə və otlaqların, nadir tapılan və nəsli kəsilməkdə olan bitki və heyvanların mühafizəsi, təbii sərvətlərdən düzgün istifadə edilməsi, təbii abidələrin qeydiyyatı, mühafizəsi və bərpası, balneoloji və iqlim ehtiyatlarından maksimum səmərəli istifadə olunması, termal və mineral mənbələrin mühafizəsi, həmçinin təbiətin mühafizəsinə və qorunmasına yönəldilmiş tədbirlərin təbliği və s. göstərilən sahələrə rəhbərliyi Azərbaycanda Ekologiya və Təbii Sərvətlər Nazirliyi edir. Nazirlik respublika ərazisində, həmçinin Xəzər dənizinin Azərbaycana aid olan hissəsində ətraf mühitin, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral ehtiyatlardan və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi və onların bərpası, hidrometeoroloji proseslərin mühafizəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən orqandır.

Təbiəti Mühafizə Cəmiyyəti öz fəaliyyətini xeyriyyəçilik prinsipləri əsasında, Azərbaycan Respublikası qanunvericiliyi və ictimai təşkilat haqqında, digər normativ hüquqi aktlar çərçivəsində həyata keçirən könüllü müstəqil ictimai təşkilatdır.

Cəmiyyətin əsas məqsədi müasir ekoloji böhran şəraitində respublika əhalisi arasında onların ekoloji savadının artırılması, Azərbaycanda sağlam və əlverişli ekoloji şərait uğrunda ictimai hərəkatın təşkili, təbiətin mühafizə problemlərinin səmərəli həllinə təkan vermək və ətraf mühitin sağlamlaşdırılması üzrə lazımi tədbirləri yerinə yetirmək üzrə daimi iş aparmaqdır.

Azərbaycanda ekologiyanın mühafizəsində əvəzsiz xidmətləri olan Təbiəti Mühafizə Cəmiyyəti ilk dəfə 1976-cı ildə akademik Həsən Əliyev tərəfindən yaradılmış və ömrünün sonunadək (1993) ona rəhbərlik etmişdir. Akademik Həsən Əliyev 1950-ci ildən Azərbaycanın yüksək dövlət vəzifələrində və Azərbaycan Elmlər Akademiyasında, 1968-ci ildən 1987-ci ilədək Coğrafiya İnstitutunun direktoru vəzifəsində çalışaraq, respublikanı dünyanın elm forumlarında təmsil etmiş, ölkənin xaricdə tanınmasında əvəzsiz xidmətlər göstərmişdir.

Hələ 1949-1952-ci illərdə Azərbaycan EA-nın Botanika İnstitutuna rəhbərlik edən Həsən Əliyev qısa müddətdə səkkiz cildlik "Azərbaycan florası" kitabının hazırlanmasına, çapına qayğı göstərməklə bu işin uğurla başa çatmasına böyük əmək sərf etmişdir. Onun təşəbbüsü ilə Botanika İnstitutunun əməkdaşları tərəfindən axtarış-tədqiqat işləri aparılaraq respublikamızın 52 rayonunun 318 obyekt sahəsində 2469 nadir abidə ağaclarının, unikal meşəliklərin olması müəyyən edilmişdir.

1957-ci ildə Həsən Əliyevin təşəbbüsü ilə Bakıda Zaqafqaziya təbiəti mühafizə müşavirəsi keçirilmişdir. Bu müşavirədə ilk dəfə dövlət təbiəti mühafizə xidmətinin yeni təşkilati formaları, təbiəti mühafizə üzrə komissiyanın fəaliyyəti təhlil edilmiş və əməli təkliflər irəli sürülmüşdür. Bir vaxtlar respublikada fəaliyyət göstərmiş Ətraf Mühitə Nəzarət və Təbiəti Mühafizə Komitəsi, Təbiəti Mühafizə Cəmiyyəti bilavasitə böyük alimin şəxsi təşəbbüsü ilə yaradılmışdır.

Azərbaycanın torpaq örtüyündə yeni salınan meşələr, Qalaaltı müalicə suyunun kəşfi, onun şəxsən orada müalicə qəbul etməsi, bu şəfa mərkəzini dünyada məşhurlaşdırması alimin adı ilə bağlıdır. Azərbaycanın zəngin təbiətinin, təbii ehtiyatlarının qorunması, yaxşılaşdırılması və onlardan səmərəli istifadənin təmin edilməsi, eləcə də ətraf mühitə mənfi antropogen təsirinin azalmasına yönələn təşəbbüslər həmişə akademikin diqqətində olmuşdur.

Ətraf mühitin mühafizəsi naminə Beynəlxalq Dialoq (IDEA) İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin təşkilati dəstəyi ilə keçirilən tədbirlərdə ətraf mühit və faunanın qorunması məsələləri həmişə gündəmdədir. IDEA İctimai Birliyi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 12 iyul 2011-ci il tarixindən fəaliyyətə başlayıb. Təşkilatın əsas məqsədi ətraf mühit məsələləri və fəaliyyətlər barədə ictimai maarifləndirmə, gənclərlə əməkdaşlıq, ətraf mühit problemləri sahəsində təhsil və onlar üçün düzgün həllər tapmaqdır.

Müxtəlif ölkələrdən olan gənclər bir araya gələrək ətraf mühitin qorunması ilə bağlı layihələr hazırlamışdır. "Bu kampaniya ətraf mühitin müsbət və dayanıqlı inkişafını təmin etmək məqsədilə gənc nəsil üçün vacib olan dialoq, fəaliyyət, liderlik və məlumatlılıq prinsiplərinə əsaslanır" deyən Leyla Əliyeva Azərbaycan hökuməti, IDEA və UNEP-in 2012-ci ilin noyabrında Bakıda "Yaşıl həftə" tədbirini keçirmişdir.

IDEA Qafqazın ən böyük təşkilatıdır və gənclərlə işləyir. Qurumun təşəbbüsü ilə Azərbaycanda milyonlarla ağac əkilmişdir. Bu iş indi də davam etdirilir.

Leyla xanım Əliyevanın təşəbbüsü ilə dünyada, o cümlədən Qafqazda nəsli kəsilməkdə olan heyvanların qorunması ilə bağlı bir neçə layihə həyata keçirilmişdir.

Akademik Həsən Əliyevin həyata keçirdiyi təbiəti mühafizə işlərini Heydər Əliyev Fondu və onun vitse-prezidenti Leyla Əliyeva davam etdirir. Bilavasitə onun rəhbərliyi ilə Abşeronda və Azərbaycanın digər bölgələrində hər il ağacəkmə kampaniyası geniş vüsət alır. İldə 100 mindən çox ağac əkilir. Bilavasitə Leyla xanımın təşəbbüsü ilə Xəzər dənizinin və onun çimərliklərinin çirklənməsinə qarşı mübarizə tədbirləri aparılır.

Ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində nəticə əldə etmək məqsədilə respublikamızda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunmuş, normativ hüquqi sənədlər, dövlət proqramları hazırlanmış və təsdiq edilmişdir. Respublika üçün aktual müvafiq dövlət proqramları çərçivəsində tədbirlər görülür.

Gəlin heç bir gözəlliyi bizdən əsirgəməyən ana təbiətə və onun bütün sərvətlərinə doğma münasibət bəsləyək, qayğı, sevgi və məhəbbətlə yanaşaq, onları qoruyub saxlamağa çalışaq, gələcək nəsillərə təqdim etmək üçün əlimizdən gələni əsirgəməyək, ona qarşı düşmənçilik mövqeyindən əl çəkək, ekoloji genosid törətməyək, ana təbiətin qanlı göz yaşlarını silək və heç vaxt bir də onu yaralayıb ağlatmayaq.

***Neron BABAXANOV, İsmayıl ƏLİYEV, Bakı Dövlət Universitetinin professorları***



# DÜNYA



■ Münaqişə

# ABŞ Honq Konqda etiraz hərəkatının müdafiəsinə qalxır

ABŞ-la Çin arasında ticarət müharibəsinin davam etdiyi bir vaxtda iki ölkə yenidən qarşı-qarşıya gəlmişdir. Bu dəfə münaqişə Çinin Honq Konq xüsusi idarəetmə rayonunda cərəyan edən hadisələrdən qaynaqlanır. ABŞ Prezidenti Donald Tramp Konqresin "Honq Konqda insan hüquqları və demokratiyanın müdafiəsi haqqında" qanun layihəsini imzalamışdır.



## Pekin Vaşinqtonu cavab tədbirləri ilə hədələyir

Qanunvericilik aktına görə, Dövlət Departamenti ildə bir dəfədən az olmayaraq Konqresə Honq Konqun yetərli muxtariyyəti qoruyub saxladığını təsdiqləməlidir. Əks-təqdirdə Honq Konq Birləşmiş Ştatlarla ticarət üçün güzəştli şərtlərdən məhrum ola bilər. Qanun həmçinin Honq Konqda insan hüquqlarını pozan rəsmi şəxslərə qarşı sanksiyaların tətbiqini nəzərdə tutur.

Tramp Konqresin dəstəklədiyi başqa bir qanun layihəsi də imzalamışdır. Bu sənəd ABŞ-ın Honq Konqa nümayişləri dağıtmaq üçün gözyaşardıcı qaz, rezin güllə və elektroşoker kimi polis avadanlığı ixracını qadağan edir.

ABŞ Prezidenti qeyd etmişdir ki, sözügedən qanun layihələrini ÇXR Sədri Si Cinpinə və Honq Konq sakinlərinə "hörmət əlaməti olaraq" imzalamışdır. O, ümidvar olduğunu bildirmişdir ki, "Çin və Honq Konq liderləri və nümayəndələri ixtilafları dinc yollarla nizamlaya biləcəklər". Tramp əlavə etmişdir ki, bu, uzunmüddətli perspektivdə "hamı üçün sülhə və çiçəklənməyə gətirib çıxaracaq".

Gözlənildiyi kimi, ABŞ Prezidentinin atdığı addım Çin rəhbərliyində sərt reaksiya doğurmuşdur. Çin Xarici İşlər Nazirliyi ABŞ-da qəbul olunmuş yeni qanunları ölkənin daxili işlərinə müdaxilə və beynəlxalq qanunvericiliyin pozulması kimi qiymətləndirmiş, Vaşinqtonu ciddi cavab tədbirləri görməklə hədələmişdir. Nazirliyin yaydığı bəyanatda deyilir ki, "ABŞ-a öz sözünün üstündə dayanmamağı tövsiyə edirik, yoxsa Çin ciddi əks-tədbirlər görməli olacaq və buna görə bütün məsuliyyət ABŞ-ın üzərinə düşəcək".

Digər tərəfdən, Çin Xarici İşlər nazirinin müavini Le Yuyçen ABŞ-ın Pekindəki səfiri Terri Branstedi nazirliyə dəvət edərək onun nəzərinə çatdırmışdır ki, ABŞ Prezidentinin sözügedən qanunları imzalaması beynəlxalq hüquqa və dövlətlərarası münasibətlərin baza normalarına ziddir. O, bununla əlaqədar Çin hökuməti və xalqının qəti etirazını bildirmiş, Vaşinqtonun atdığı addımı sırf hegemonluq davranışı kimi qiymətləndirmişdir.

Öz növbəsində Honq Konq administrasiyası Ağ evin mövqeyini pisləmişdir. Onun fikrincə, qanun layihələrinin imzalanması yalnız ABŞ-la Honq Konq arasında münasibətlərə və iki tərəfin maraqlarına ziyan vura bilər, çünki Vaşinqtonun atdığı addım daxili işlərə açıq-aşkar qarışmaqdır və etirazçılara yanlış siqnal göndərmək mənasına gəlir.

Xatırlatmaq yerinə düşər ki, Honq Konqda etiraz hərəkatı bu ilin iyununda başlamışdır. Nümayişçilər əvvəlcə yerli hökumətin cinayətkarları Çin hakimiyyət orqanlarına təhvil vermək planına qarşı çıxırdılar. Bir müddət sonra etirazçılar demokratik islahatlar keçirməyi, ümummilli seçki hüququnun tətbiqini və Honq Konq administrasiyasının başçısı Kerri Lamın istefaya çıxmasını tələb etməyə başladılar. Bundan başqa, nümayişçilər əvvəlki aksiyalar zamanı polis zorakılığı hallarının müstəqil təhqiqini həyata keçirməyə çağırdılar.

İrimiqyaslı etiraz aksiyalarından sonra Honq Konq hakimiyyət orqanları ötən ayın əvvəllərində güzəştə gedərək cinayətkarların ekstradisiyası haqqında qanun layihəsini gündəlikdən çıxardı. Buna baxmayaraq, etiraz aksiyaları dayanmadı, azsaylı olsa da, daha aqressiv xarakter aldı.

Honq Konqda etiraz aksiyaları başlayandan bəri ABŞ başda olmaqla Qərb dövlətləri mütəmadi olaraq Çin hakimiyyət orqanlarını tənqid edirdi. Öz növbəsində Pekin bəyan edirdi ki, etiraz hərəkatının geniş miqyas alması ilk növbədə ABŞ və digər Qərb dövlətlərinin müdaxiləsi ilə əlaqədardır. Çin Xarici İşlər nazirinin müavini Le Yuyçen bir neçə gün əvvəl bildirmişdi ki, etirazların pərdəarxası sponsoru ABŞ-dır. Onun fikrincə, Vaşinqton bu yolla Çinin inkişafını dayandırmaq niyyətindədir. Nazir müavini əlavə etmişdi ki, ABŞ administrasiyasının ölkəsinə münasibətdə yürütdüyü siyasət səhvdir, Vaşinqtonun belə cəhdləri beynəlxalq birlikdən heç bir dəstək almır və ona görə də uğursuzluğa məhkumdur.

Qərb dövlətlərinin heç biri indiyədək Honq Konq hadisələrinə sərt münasibət bildirməmiş, vəziyyəti müşayiət etməklə kifayətlənmişdi. Bu istiqamətdə ilk addımı "Honq Konqa insan hüquqları və demokratiyanın müdafiəsi haqqında" qanun qəbul etməklə ABŞ atmışdır. Ağ ev administrasiyasının bu hərəkətlə hansı niyyət güddüyünü müəyyənləşdirmək çətindir. Bəlkə Vaşinqton ötən bazar günü Honq Konqda rayon şuralarına keçirilmiş seçkilərdə müxalifətin qələbəsindən "ilhamlanmışdır"?

Honq Konqda etirazlar hələ dayanmayıb. ABŞ-dan fərqli olaraq, Avropa hadisələrin gedişini izləməklə kifayətlənir. Çətin ki, köhnə dünya Vaşinqtonun ardınca gedib hansısa sərt mövqe ifadə etsin. Bununla yanaşı, Çinin cavab reaksiyasını gözləmək lazım gələcək. Bircə o məlumdur ki, Vaşinqtonun etiraz hərəkatına qanun qəbul etməklə münasibət sərgiləməsi Honq Konqla Birləşmiş Ştatların qarşılıqlı biznes maraqlarına təsirsiz ötüşməyəcək. Təkcə bir faktı nəzərə almaq kifayətdir ki, Honq Konqda ABŞ-ın 85 min vətəndaşı və biznesmeni yaşayır. Burada ABŞ-ın 1344 şirkəti fəaliyyət göstərir.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

■ Qəza

## ABŞ zavodunda partlayış: 60 min nəfər təxliyə edildi

ABŞ-ın Texas ştatında neft-kimya zavodunda baş vermiş yanğın və partlayışlar üzündən 6 kilometr radiusda yaşayış məntəqələrinin sakinləri təxliyə olunmuşdur. Hakimiyyət orqanlarının icbari təxliyə haqqında əmri Cefferson dairəsində yerləşən beş şəhəri əhatə edir. Bu barədə yerli "KFDM News" telekanalı xəbər verir.



Məlumata görə, icbari təxliyə Hyuston yaxınlığındakı kimya zavodunda ikinci güclü partlayış baş verdikdən sonra elan olunmuşdur.

CNN telekanalı xəbər verir ki, birinci partlayış gecə saatlarında baş vermişdir. Bir neçə kilometr məsafədə evlərdə şüşələr qırılmışdır. Nəticədə azı 3 nəfər xəsarət almışdır. Bundan əlavə, Port-Neçes qəsəbəsinin infrastrukturu zərər çəkmişdir. İkinci partlayış təxminən 12 saatdan sonra baş vermişdir.

Zavodun sahibi "TPC Group" şirkətinin verdiyi ilkin məlumata görə, yanğın neft-kimya qurğusunun işi ilə əlaqədardır.

■ Terror

## Əfqanıstanda terror aktında 15 nəfər öldü

Əfqanıstanda yol kənarında yerləşdirilmiş bombanın partlaması nəticəsində 15 nəfər həlak olmuşdur. Bu barədə ölkə Prezidentinin mətbuat katibi Siddiq Siddiqi məlumat vermişdir.



Siddiqinin dediyinə görə, hadisə ölkənin şimal-şərqində yerləşən Qunduz əyalətinin İmam-Sahib qəzasında baş vermişdir. O dəqiqləşdirmişdir ki, partlayıcı qurğu dinc sakinləri daşıyan avtomobil hərəkət edərkən işə salınmışdır.

Məmur bu hücuma görə məsuliyyəti "Taliban" hərəkatının üzərinə qoymuşdur. Taliblərin nümayəndələri hadisə ilə əlaqədar hələ ki heç bir şərh verməmişlər.

■ Etiraz

## İraqda etirazçılar İran konsulluğuna od vurdular

İraqda etirazçılar Nəcəf şəhərində yerləşən İran konsulluğuna hücum edib binaya od vurmuşlar. Bu barədə "Röyter" agentliyi xəbər verir.



Məlumata görə, diplomatik nümayəndəliyin əməkdaşları təxliyə olunmuşlar. Yerli hakimiyyət orqanları hadisədən sonra komendant saatı tətbiq etmişdir.

Xatırladaq ki, etirazlar ötən ayın 1-də paytaxt Bağdadda başlamış və ölkənin cənub şəhərlərinə yayılmışdır. Nümayişçilər hökuməti kütləvi korrupsiyada, aşağı həyat səviyyəsinin və ağır iqtisadi vəziyyətin yaranmasında ittiham edirlər.

■ Korrupsiya

## Cənubi Koreyada eks-prezidentin işinə yenidən baxılacaq

Cənubi Koreyanın korrupsiyada ittiham olunmuş eks-prezidenti Pak Kın He barəsində çıxarılmış hökm sərtləşdirilə bilər. Ölkənin Ali Məhkəməsi iyul ayında ikinci instansiya məhkəməsinin onun üzərindən götürdüyü bir sıra ittihamlarla bağlı qərara yenidən baxacaq. Qərar nəticəsində eks-prezidentin həbs müddəti 33 ildən 32 ilə salınmış, habelə cərimələrin məbləği azaldılmışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.



Ali məhkəmə instansiyasında dövlətə vurulmuş ziyan və Prezidentə tabe olmayan Milli Kəşfiyyat Xidmətinin fondlarından vəsaitlərin mənimsənilməsi ilə bağlı işi yenidən müzakirə etmək qərara alınmışdır.

Pak Kın He 2017-ci ilin aprelində saxlanmış və korrupsiya, rüşvətxorluq, vəzifə səlahiyyətlərini aşmaq, dövlət sirrini açıqlamaqda ittiham olunmuşdu. O, ötən ilin aprelində 24 il müddətinə azadlıqdan məhrum edilmişdi. Avqust ayında isə məhkəmə hökmü daha bir il sərtləşdirmişdir.

Cari ilin iyul ayında məhkəmə büdcəni mənimsədiyinə görə Pak Kın Heyə daha 6 il iş vermişdir.

■ Kosmik fəza

# Kosmosda silahlı qarşıdurmaya doğru

## Yerətrafı orbitin hərbiləşdirilməsi konkret cizgilər kəsb edir



Kosmik məkanın fəthinin başlamasından 60 ilə yaxın vaxt keçir. Ötən illər ərzində kosmosa uçuşlar, aparılmış kosmik tədqiqatlar bəşəriyyətin xidmətində olmuş, insan həyatını tamamilə dəyişdirmişdir. Kosmonavtlar Yerətrafı orbitə uçarkən bilirlər ki, onlar Yer sakinlərinin naminə işləyirlər.

Yer planetinin minlərlə süni peyki və orbital stansiyalar elmi problemlərin və təsərrüfat məsələlərinin həllinə kömək edir. Kosmonavtika qlobal radio-televiziya yayımının təşkilinə və inkişafına, gəmi və təyyarələrin idarə olunmasına, meteorologiyaya böyük töhfə verir. Bundan əlavə, kosmik tədqiqatlar okeanologiya, geologiya, coğrafiya, xəritəçəkmə, balıqçılıq və meşə sənayesinin, eləcə də kənd təsərrüfatının qarşısına qoyulan vəzifələrin həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Süni peyklər ətraf mühitin çirklənməsini izləyir, Yer ehtiyatlarını tədqiq edir və digər problemlərlə məşğul olur. Kosmik məkanın mənimsənilməsi insanın digər planetlərlə "tanış olması"na, onların öyrənilməsinə zəmin yaradır.

Göründüyü kimi, kosmik məkanın fəthi bəşər övladının yalnız xeyrinə işləyir. Bununla belə, son vaxtlar kosmosdan başqa məqsədlər üçün istifadə etmək meyilləri ortaya çıxmışdır. Söhbət Yerətrafı orbiti həribiləşdirməkdən, daha doğrusu, kosmosda silah yerləşdirməkdən gedir. Başqa sözlə, böyük dövlətlər arasında Yer üzərində hökmranlıq uğrunda barışmaz mübarizə kosmik fəzaya keçir.

Ötən həftə NATO-nun xarici işlər nazirləri səviyyəsində keçirilmiş iclasında kosmosla əlaqədar daha bir qərar qəbul olunmuşdur: Şimali Atlantika alyansı kosmosu əməliyyatlar keçirmək üçün ayrıca sahə elan etmişdir. Alyansın baş katibi Yens Stoltenberq qərarı şərh edərkən vurğulamışdır ki, "biz kosmosda silah yerləşdirmək niyyətində deyilik, çünki NATO müdafiə təşkilatıdır". O ardınca əlavə etmişdir ki, "kosmosdan təkcə dinc yox, həm də aqressiv məqsədlər üçün istifadə oluna bilər".

Bəs NATO kosmosda hansı əməliyyatları keçirməyi planlaşdırır? Stoltenberq izah etmişdir ki, "kosmos müdafiə siyasətimizi həyata keçirmək, xüsusilə kəşfiyyat məlumatları toplamaq və raket buraxılışlarını aşkarlamaq üçün lazımdır". Kosmik məkanda təxminən 2 min peyk var, onların yarısına yaxını NATO dövlətlərinə məxsusdur. Alyans bu qruplaşmadan rabitə, naviqasiya, hədəfin yerinin müəyyən edilməsi və erkən xəbərdarlıq vasitələri kimi yerüstü silahlı qüvvələri dəstəkləmək üçün istifadə etmək niyyətindədir. Stoltenberqin başqa bir bəyanatı da diqqəti cəlb edir: "Peyklər radiosiqnallar vasitəsilə bloklana, dağıdıla və ya silahla təchiz oluna bilər. Peyk əleyhinə silah cəmiyyətin istifadə etdiyi rabitə, hava nəqliyyatı, hava proqnozu, bank sektoru kimi digər xidmətləri məhv etmək iqtidarındadır".

NATO-nun baş katibi belə bir məqamı ayrıca vurğulamışdır ki, qəbul olunmuş qərar beynəlxalq hüquq normalarına uyğundur. Bu, həqiqətən belədir. SSRİ, ABŞ və Böyük Britaniyanın 1967-ci il yanvarın 27-də kosmos haqqında imzaladığı müqavilə nüvə silahı, yaxud hansısa digər kütləvi qırğın silahını Yer orbitində, Ayda və hər hansı digər səma cismində yerləşdirməyi qadağan edir. Bu müqavilə Ay və digər səma cisimlərindən yalnız dinc məqsədlər üçün istifadə olunmasını müəyyən edir, həmin cisimlərdə hər hansı silah növünü sınaqdan çıxarmağa, təlimlər keçirmək, hərbi bazalar, qurğular və istehkamlar yaratmağa birbaşa qadağa qoyur. Həmçinin müqavilədə göstərilir ki, heç bir dövlət kosmik cismə və ya onun bir hissəsinə iddia edə bilməz, dövlətlərin suverenliyi yalnız onların kosmosa buraxdığı obyektlərə şamil olunur. Bu o deməkdir ki, kosmosda kütləvi qırğın silahlarından savayı digər silahlar yerləşdirilə bilər.

Bundan başqa, Stoltenberq bildirmişdir ki, NATO-nun üzvü olan ölkələr kosmik təhlükələrin hərbi hücum kimi qiymətləndirilə bilən növlərini öyrənir. Bu isə öz növbəsində Şimali Atlantika alyansının təməl daşının - Vaşinqton müqaviləsinin 5-ci maddəsinin işə düşməsinə gətirib çıxara bilər. Həmin maddədə deyilir ki, alyans ölkələrinin hər hansı birinə hərbi hücum NATO-nun bütün qalan dövlətlərinin hamısına təcavüz kimi nəzərdən keçirilir.

NATO və üzv ölkələr bundan əvvəl də kosmosda gələcək hərbi fəaliyyətlə əlaqədar addımlar atmışdır. Cari ilin iyununda Şimali Atlantika alyansı ilk kosmik strategiyasını qəbul etmişdir. Strategiyaya uyğun olaraq, NATO missiyalarını həyata keçirərkən rabitə, naviqasiya, raket buraxılışları barədə erkən xəbərdarlıq sistemləri və münaqişə zonalarında vəziyyət haqqında məlumat almaq üçün lazım olan peykləri müdafiə etmək niyyətindədir. Alyansın rəhbərliyini belə bir məqam narahat etməyə başlamışdır ki, Rusiya və Çin kimi ölkələr peyklərin işini məhdudlaşdırmaq və onları məhv etmək imkanlarını öyrənir.

Eyni zamanda NATO-nun aparıcı üzvü ABŞ ayrıca qoşun növü - hərbi kosmik qüvvələr yaratmağı qərara almışdır. Prezident Donald Tramp hələ ötən ilin iyununda Müdafiə Nazirliyinə müvafiq tapşırıq vermişdir.

Eyni zamanda başqa ölkələrin də kosmosa iddiaları özünü göstərir. Artıq Rusiya, Çin və Hindistan kosmik imkanlarını genişlətmək niyyətində olduqlarını bəyan etmişdir. Həmçinin kosmik silahların yaradılmasından söhbət gedir. NATO baş katibinin dediyinə görə, ABŞ və Fransa kosmik silah hazırlamaq mərhələsindədir. Böyük Britaniyanın da bu sahədə yetərli texnoloji imkanları var. Yeri gəlmişkən, ABŞ-ın məxfiləşdirilmiş X-37B orbital pilotsuz təyyarəsi artıq bir dəfə kosmosda olmuş, 780 gün orbitdə qalıb hansısa eksperimentlər keçirmişdir.

Aydındır ki, Qərbin kosmos uğrunda mübarizədə rəqibləri, ilk növbədə Rusiya hadisələrin gedişini müşahidə etməklə kifayətlənmirlər. Rusiyalı ekspertlər hesab edirlər ki, ABŞ və NATO-nun kosmosu hərbiləşdirməsinə Moskvanın ilk cavabı döyüşə hazır vəziyyətə gətirilmiş "Peresvet" lazer kompleksi və yaxın kosmosda hədəfləri vurmağa qadir olan S-500 zenit-raket sistemidir. Yeri gəlmişkən, Rusiya ABŞ-ın kosmosda silah yerləşdirmək planını artıq reallaşdırmağa başladığını iddia edir. Həmçinin Vaşinqton raket əleyhinə müdafiə elementlərinin kosmosda peyda olacağını istisna etmir, üstəlik, Rusiya və Çini kosmik məkanda silah yerləşdirməkdə günahlandırır.

Kosmosda əməliyyatlar keçirmək niyyətində olan ölkələrin hamısı planlarının sırf müdafiə xarakteri daşıdığını iddia edir. Amma heç kim zəmanət verə bilməz ki, "müdafiəçilər" günlərin birində müdafiə mövqeyindən çıxıb hücuma keçmək fikrinə düşməyəcəklər.

***A.MEHDİYEV, "Azərbaycan"***

AZƏRLOTEREYA

# Hörmətli lotereya həvəskarları

## "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin təşkil etdiyi lotereya oyunlarında yüzlərlə insan müxtəlif məbləğlərdə pul uduşlarının sahibi olmuşdur. Lotereya oyunlarının qaliblərinin qarşılaşdıqları ən maraqlı əhvalatları Sizinlə bölüşürük




Bakı şəhər sakini Talıbov Vüsal Nüsrət oğlu ailəsi ilə birlikdə istirahət etmək məqsədilə Şəki şəhərinə getmişdi. Çox nadir hallarda lotereya oyunlarında iştirak edən Vüsal ailəsinin istəyi ilə "SUPER 5+" ani lotereya biletini alır. Aldığı lotereyanın necə oynanılmasından belə xəbəri olmayan Vüsal bileti pozmadan avtomobildə qoyur və onun mövcudluğunu unudur. Bir müddət keçdikdən sonra həmin lotereya biletini avtomobilində görərək onu yoxlamaq qərarına gəlir. Oyunun qaydalarını bilməyən Vüsal lotereya biletini pozduqdan sonra da qalib olduğunu anlamır və bileti dostlarına göstərdikdən sonra 10.000 (on min) manat qazandığını başa düşür.

"8-ci km. bazarı"nda ticarətlə məşğul olan Zəngilan rayon sakini Sahib Salahov gündəlik olaraq 5 manat civarında ani lotereya alırdı. Bir gün "8-ci km. bazarı"nda yerləşən satış məntəqəsindən 5 ədəd "Uğurlu Rəqəm 14" ani lotereyasını alan qalib 10 manat məbləğində uduş qazanır. Qazandığı məbləğdən 9 ədəd bilet alan Sahib yenə də heç nəyə nail olmur. Sonuncu 1 manata da bilet alır və 50.000 manat qazanır.

Bakı şəhər sakini Ehtiram Əhmədov beş il ərzində hər gün özünün yazdığı şablon rəqəm kombinasiyası ilə "6/40" və "5/36" tirajlı lotereya oyunlarında iştirak edirdi. "5/36" tirajlı lotereyasının 2850-ci tirajında 289 429 manat məbləğində olan "Cek Pot"un qalibi olmuşdur. "Sədərək" ticarət mərkəzində kiçik bizneslə məşğul olan qalib 11 ildir ki, kirayədə yaşayır və tək arzusu ev sahibi olmaqdır. Qalibin sözlərinə görə, o, qazanılan məbləğlə ilk növbədə özünə mənzil alacaq.

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti lotereya oyunlarında Sizə bol-bol şanslar arzu edir.

***Sizin "Azərlotereya"***

## Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması üzrə

## *tender elanı*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 06 yanvar 2020-ci il saat 15:00-da dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) (bundan sonra - Portal) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 50 (əlli) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK: NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 18 fevral 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **06 yanvar 2020-ci il saat 14:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **19 dekabr 2019-cu il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən 120 (yüz iyirmi) təqvim günü müddətində.

Qiymətləndirmə meyarları: qiymət və keyfiyyət amili (funksional yararlılıq).

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29.10.2019-cu il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına 8 nömrəli Regional Sukanal İdarəsinin Tovuz rayonu üzrə inzibati binasının əsaslı təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş açıq tenderdə iştirakçıların rəsmi müraciətləri nəzərə alınaraq, təkliflərin qəbulu vaxtı uzadılaraq 03 dekabr 2019-cu il saat 16:00-a, zərflərin açılışı isə 04 dekabr 2019-cu il saat 16:00-a təyin edilmişdir.

Əlaqələndirici şəxs: İntizam Novruzov, tel: 431-47-67/3019.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun Ucar rayon şöbəsinin inzibati binasının cari təmir işlərinin satın alınması üzrə keçirilən

## *təkliflər sorğusuna dəvət edir*

Maraqlanan təşkilatlar (012) 530-29-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iştirakçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **04 dekabr 2019-cu il saat 17:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **05 dekabr 2019-cu il saat 10:00-da** Bakı şəhəri, H.Zərdabi, 80 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun Ağsu rayon şöbəsinin inzibati binasının cari təmir işlərinin satın alınması üzrə keçirilən

## *təkliflər sorğusuna dəvət edir*

Maraqlanan təşkilatlar (012) 530-29-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu : - 4**

**İştirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iştirakçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **04 dekabr 2019-cu il saat 17:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **05 dekabr 2019-cu il saat 10:00-da** Bakı şəhəri, H.Zərdabi, 80 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

1. **Brandwallun çap edilməsi,**
2. **Müxtəlif çap məhsulların hazırlanması,**
3. **Avadanlıqların alınması,**
4. **Dəftərxana ləvazimatlarının alınmasını**

kotirovka sorğusu üsulu ilə həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 2019-cu il 04 dekabr saat 15:00 tarixədək Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

# "Azərenerji " ASC "Keyfiyyət və ən böyük dəyişikliklərə görə qızıl mükafat" aldı

Dünya miqyasında müəssisələr üzrə keyfiyyət və davamlı inkişafa nail olunmanı araşdıran və Avropanın nüfuzlu qeyri-hökumət təşkilatları tərəfindən dəstəklənən Fransanın "Otherways Group" Menecment və Konsaltinq Assosiasiyası "Azərenerji" Açıq Səhmdar Cəmiyyətini "2019-cu ildə keyfiyyət və ən böyük dəyişikliklərə görə qızıl mükafat"a layiq görüb.




24-25 noyabr tarixlərində İtaliyanın Roma şəhərində keçirilən tədbirdə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətini Xarici iqtisadi əlaqələr idarəsinin rəisi Əli Abbasovla İctimaiyyətlə əlaqələr və media mərkəzinin rəisi Teymur Abdullayev təmsil ediblər. Beləliklə, Fransa, Yaponiya, Yunanıstan və digər 24 ölkənin hökumət və böyük səhmləri dövlətdə olan müəssisələrindən biri də Azərbaycandan olub. MDB ölkələrindən isə yalnız Ukrayna, Gürcüstan və Azərbaycan mükafata layiq görülüb.

Tədbirdə Prezident İlham Əliyevin energetika strategiyasına uyğun olaraq son illərdə enerjinin istehsalı, ötürülməsi, paylanması və idarəedilməsi sahəsində aparılan inkişaf, islahat, tikinti, o cümlədən "Reabilitasiya Proqramı" çərçivəsində həyata keçirilən yenidənqurma işləri barədə iştirakçılara geniş məlumat verilib.

***"Azərbaycan"***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 03.12.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

## B İ L D İ R İ Ş

08 noyabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən fondun nəzdində olan sosial xidmət müəssisələrinə inventarların satın alınması üçün keçirilmiş açıq tenderdə "LOTUS CO" MMC qalib olmuş və satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8909
Sifariş 3982
Qiyməti 40 qəpik